KÜRD xalqı mübariz və qəhrəman xalqdır
H.Əliyev

# DÎPLOMAT

www. Diplomata-kurdi.com

№ 20 (168), 28 May, Gulan - 03 İyul, Hezîran sal 2012
Ji meha şûbatê sala 2003-a tê weşandin

Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî

Qiymәti: Hêjaye: 40 qəpik


Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!

Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məscidləri.

Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu



Səh. 2

"Buta" sarayında 28 May - Respublika Gününə həsr olunmuş rəsmi qəbul təşkil edilib



Səh. 14

Mam Celal bi hemû şîyana xwe piştîvanîya nêrînên herêmê dike



Səh. 15

Нечирван Барзани: энергия должна быть использована для процветания, а не для войны



Səh. 3

AVROPA BİRLİYİ KÜRD SİYASƏTÇİNİN HƏBSİNDƏN NARAHATDIR



Səh. 5

"...BU HANSI KÜRDÜSTANDIR..."



Səh. 14

Aysel Tugluk jî cezayê girtîgehê girt



Səh. 10

"Tatlısəs sui-qəsdində AKP-nin əli var"

MÜSTƏQİL KÜRD DÖVLƏTİ ELAN EDİLƏ BİLƏR Səh. 4

İspaniyadan ermənilərə zərbə Səh. 9

Ağrı vilayətinin Daşlıçay qəzası Səh. 8

Avropa Birliyi üzərindən Orta Doğu siyasəti Səh. 12

İrana qarşı tətbiq olunan sanksiya ləğv edilib Səh. 8

10 Gundî Hatin Serbest Berdan Səh. 13



Səh. 6

KÖKLƏNMİŞƏM



Səh. 13

Fermandarê komkujiya Roboskiyê diyar bû



Səh. 3

İslam dünyasını parçalayanlar-sapı özümüzdən olan baltalarmış



Səh. 11

1905-06-cı illərdə erməni-müsəlman davası

# "Buta" sarayında 28 May - Respublika Gününə həsr olunmuş rəsmi qəbul təşkil edilib

## *İlham Əliyev: "Azərbaycan dövləti və xalqı Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır"*

Dünən "Buta" sarayında 28 May - Respublika Gününə həsr olunmuş rəsmi qəbul təşkil edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri rəsmi qəbulda iştirak ediblər. Salona toplaşanlar Prezident İlham Əliyevi hərarətlə qarşıladılar. Azərbaycanın dövlət himni səsləndi.

Dünən "Buta" sarayında 28 May - Respublika Gününə həsr olunmuş rəsmi qəbul təşkil edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri rəsmi qəbulda iştirak ediblər. Salona toplaşanlar Prezident İlham Əliyevi hərarətlə qarşıladılar. Azərbaycanın dövlət himni səsləndi.

Dövlətimizin başçısı rəsmi qəbulda nitq söylədi. Prezident İlham Əliyev Respublika Günü münasibətilə xalqımızı təbrik edərək Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını tarixi hadisə kimi səciyyələndirdi. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan dövləti və xalqı Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır. Cümhuriyyətin müstəqilliyinin çox qısamüddətli olduğunu qeyd edən dövlətimizin başçısı bu iki il ərzində böyük işlərin görüldüyünü, mühüm dövlət strukturlarının və atributlarının yaradıldığını vurğuladı. Cümhuriyyətin süqutundan sonra Azərbaycanda sovet dövrünün başlandığını qeyd edən Prezident İlham Əliyev bütün çətinliklərə və ideoloji çərçivələrə baxmayaraq, o dövrün də Azərbaycan üçün uğurlu olduğunu bildirdi.

Azərbaycanın 1991-ci ildə bərpa etdiyi müstəqilliyinin ilk illərinin çətin keçdiyini, həmin dövrdə hökm sürən anarxiya, xaos, hakimiyyətsizlik və özbaşınalığın ölkəmiz üçün böyük təhlükə olduğunu deyən Prezident İlham Əliyev 1993-cü ildə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra bütün xoşagəlməz halların qarşısının alındığını, respublikada sabitliyin yarandığını, inkişaf dövrünün başlandığını, dövlətçiliyimizin əsaslarının formalaşdırıldığını və ümumi inkişaf strategiyasının müəyyənləşdirildiyini diqqətə çatdırdı.



Dövlətimizin başçısı 1993-2003-cü illərdə ölkəmizin böyük, uğurlu yol keçdiyini vurğulayaraq, xalqımızın ulu öndər Heydər Əliyevin xatirəsini hər zaman böyük ehtiramla yad etdiyini bildirdi.

Bu gün Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin daha da möhkəmləndiyini, regional müstəvidə təsir imkanlarının artdığını, iqtisadiyyatın inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı, digər sahələrdə də respublikamızın sürətlə inkişaf etdiyini dedi. Azərbaycan iqtisadiyyatının Cənubi Qafqaz iqtisadiyyatının 80 faizini təşkil etdiyini deyən Prezident İlham Əliyev ötən il müstəqilliyinin 20-ci ildönümünü qeyd edən gənc respublikamızın 155 ölkənin etimadını qazanaraq BMT Təhlükəsizlik Şurasına üzv seçilməsini xarici siyasətimizin düzgün olduğunun bariz nümunəsi kimi səciyyələndirmişdir. Qeyd olundu ki, BMT Təhlükəsizlik Şurasına üzv seçilməyimiz dünya birliyinin bizə olan münasibətini göstərir və hazırda Azərbaycan Təhlükəsizlik Şurasına sədrlik edir.

Ölkə qarşısında duran əsas vəzifə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsidir, - deyən Prezident İlham Əliyev bu istiqamətdə heç bir nəticənin olmamasından təəssüfləndiyini vurğuladı. Münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü prinsipi çərçivəsində həlli ilə bağlı nüfuzlu beynəlxalq təşkilatların kifayət qədər qətnamə və qərarlarının olduğunu diqqətə çatdıran dövlətimizin başçısı bu istiqamətdə bir neçə gün əvvəl Çikaqoda keçirilən NATO zirvə görüşündə çox əsaslı və ədalətli qətnamənin qəbul edildiyini dedi. Bu gün iqtisadi inkişaf templərinə görə Azərbaycan dünya miqyasında lider ölkədir, - deyən Prezident İlham Əliyev beynəlxalq kredit agentlikləri tərəfindən Azərbaycanın kredit reytinqlərinin yüksək qiymətləndirildiyini bildirdi. Qeyd etdi ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi təmin olunur, neft və qazdan asılılıq azaldılır, özəl sektorun inkişafına böyük dəstək verilir. Hazırda iqtisadiyyatımızın 80 faizi özəl sektorda formalaşır.



Azərbaycanın qonşuları ilə beynəlxalq hüquq prinsipləri, qarşılıqlı hörmət və etimad əsasında, bir-birinin işinə qarışmamaq şərti ilə münasibət qurmağa çalışdığını deyən dövlətimizin başçısı ölkəmizin bu yaxınlarda Qoşulmama Hərəkatına üzv olduğunu diqqətə çatdırdı. Bildirdi ki, bu təşkilatda Azərbaycana qarşı böyük rəğbət, inam vardır və biz bu vəziyyətdən istifadə edib daha da çox dostlar qazanacağıq.

Prezident İlham Əliyev ölkəmizin sosial-iqtisadi inkişafı və hüquqi-demokratik dövlət quruculuğu prosesinin bundan sonra da uğurla davam edəcəyini diqqətə çatdıraraq, Azərbaycan xalqını bir daha Respublika Günü münasibətilə təbrik etdi. Sonra 2012-ci il üçün Azərbaycan Respublikasının elm sahəsi üzrə Dövlət Mükafatı ilə təltifedilmə mərasimi oldu.

Qarabağın, Naxçıvanın və İrəvan xanlığının tarixinə dair silsilə əsərlərə görə tarixçi-alimlər Yaqub Mahmudov, Süleyman Məmmədov, Nazim Mustafayev, Gövhər Məmmədova və başqalarına Dövlət mükafatları təqdim edildi.

Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov göstərdiyi yüksək diqqət və qayğıya görə dövlətimizin başçısına ölkəmizin elmi ictimaiyyəti adından minnətdarlığını çatdırdı. Təltif olunanlar Prezident İlham Əliyev ilə xatirə şəkli çəkdirdilər. Rəsmi qəbul incəsənət ustalarının maraqlı konsert proqramı ilə davam etdi.

# AVROPA BİRLİYİ KÜRD SİYASƏTÇİNİN HƏBSİNDƏN NARAHATDIR



FaktXeber.com-un verdiyi məlumata görə, Avropa Birliyi Komissiyası, Diyarbəkir millət vəkili Leyla Zananın 10 il müddətinə azadlıqdan məhrum edilməsindən dərin narahatlıq hissi keçirdiyini bildirib. Avropa Birliyi Komissiyası üzvü Stefan Fülenin sözcüsü Peter Stano, mətbuata verdiyi açıqlamada bildirib ki, AB Komissiyası terrorla mübarizədə Türkiyəni dəstəkləyir. Azadlığı təməl dəyər olaraq görürük. Söz azadlığına heç bir manea törədilməməlidir. Biz bu mərhələni yaxından izləyəcəyik. Qeyd edək ki, Türkiyənin Diyarbəkir şəhərinin millət vəkili Leyla Zana, müxtəlif tarixlərdə etdiyi 9 çıxışına görə, 55 ilə qədər həbs istəyi ilə mühakimə olunduğu məhkəmə iddiasında 10 il həbs cəzasına məhkum edilib.

Bu məktub həqiqətən tarixi bir sənəd baxımından, Səudiyyə xanədanının bölgədəki gerçək niyyətini ortaya qoyması baxımından son dərəcə əhəmiyyətlidir. İslamazeri.azın araşdırmasına görə, Səudiyyə Kralı, bu sənəddə Misir, Suriya, Fələstin və İraq haqqındakı düşüncələrini açıq bir şəkildə ortaya qoymuşdur. Əgər bu məktub araşdırılsa Ərəb - İsrail müharibəsi, Qəzzanın işğalı, İraqın şimalında Kürd dövləti və Suriyanın bölünmə cəhdləri dəqiq bir şəkildə ortaya çıxmış olacaq.

Qeyd edək ki, 1964-1975-ci illər arasında Səudiyyə Ərəbistanı Krallığının başçısı olmuş Feysəl kral



# “Misiri vurun, Suriyanı bölün, İraqı parçalayın"

*Səudiyyə Ərəbistanının keçmiş kralı Feysəl ibn Əbdül Əzizin ABŞ-ın otuz altıncı prezidenti Lyndon B. Johnsona yazdığı məktub*

***İslam dünyasını parçalayanlar-sapı özümüzdən olan baltalarmış***

Əbdüləziz Ali-Səudun üçüncü oğlu olmuşdur. Anası isə Şeyx Məhəmməd ibn Əbdülvəhhabın nəslindən olan Tərfə bint Abdullah ibn Əbdüllətif Ali-Şeyx idi.

27 dekabr 1966 (15 Ramazan 1386-cı) ildə Səudiyyə Ərəbistanı nazirlər kabineti sənədlərinin 342-ci sayında olan məktub belədir:

**Hörmətli prezident!**

Danışıldığı və sizə ifadə etdiyim kimi Misirin bizim ən böyük düşmənimiz olduğu aşkardır. Əgər bu düşmən (Misir) özbaşına buraxılsa, düşmənləri hərbi və informasiya vasitəsilə himayə edəcək və 1970-ci il gəlmədən artıq bizim üçün mənfəət, çıxar və varlığımız həyat səhnəsindən çıxacaq. Bu nöqtə sizin dövlət mütəxəssislərinizdən "Kermit Kim Ruzvelt, Jr." də (ABŞ prezidentlərindən "Teador Ruzveltin nəvəsi olan Kermit Ruzvelt CİA-ın orta Şərq şöbə rəhbəri olub) bunu ifadə etmiş və bunu vurğulamışdır. Bu səbəbdən aşağıdakı təklifləri diqqətinizə çatdırıram. Halbuki bundan əvvəl sizin Ərəbistandakı mütəxəssisləriniz də bu məqamlara toxunmuşdular:

- Amerika, İsrailin himayəsiylə ani bir şəkildə Misirə hücum etsin və Misirin ən əhəmiyyətli strateji və həssas mərkəzlərini ələ keçirsin. Sonra Misir bununla məcbur edilərək Yəməndə olan əsgərlərini geri çəksin. (Misir, 1962-1967-ci illər arasında Yəməndə baş verən vətəndaş müharibəsində respublikaçıların yanında vuruşaraq əsgər saxlamış və ABŞ ilə əlaqələri gərginləşmişdi) Bununla da kifayətlənməyərək İsraili orada tutaraq bu yolla Misir bir müddət özü-özüylə elə bir şəkildə məşğul edilsin ki, heç bir Misirli Süveyş kanalından başını qaldıra bilməsin və Ərəb Dünyasını birləşdirmə arzusunda olan Məhəmməd Əli Paşa (1769-1849 illərdə Misir qubernatorluğu etmiş və Osmanlı dövlətinə qarşı müvəffəqiyyətlə nəticələnən bir üsyan çıxarmışdı. Hər nə qədər Osmanlılara bağlı kimi görünsə də, o dövr, Sudan, Misir, Fələstin və Suriyanın gerçək hökmdarı olaraq qəbul edilmiş və 150 il boyunca xanədanı tərəfindən bu torpaqlar idarə olunmuşdur) və Əbdülnasirin (Camal Əbdülnasir, Misirə 1956-1970 illərdə rəhbərlik etmiş ikinci respublika prezidentidir. Krallığa son verən zərbənin ardından baş nazir və respublika prezidenti olaraq Misirdə köklü dəyişikliklərə damğasını vurmuş, güclü bir xarici siyasətlə Ərəb dünyasında bir öndər rolu oynayaraq kütləni arxasınca aparmağı bacarmışdır) hədəfi reallaşmasın. Bu şəkildə təxribçilərin qanun və təməllərini yalnız ölkəmizdə deyil, bütün Ərəb dünyasından köklərini kəsək. Misiri məğlub edib basdırdıqdan sonra özümüzü yaxşı göstərmək üçün ona kömək edək!

- Suriyaya gəlincə, hücum edilməsi lazım olan ikinci ölkə Suriyadır. Bu istiqamətdə lazım olan budur: Suriyanın bəzi torpaqlarını ondan ayıraq ki, bu ölkə də başını qaldıra bilməyərək özü-özüylə məşğul olsun və Ərəb dünyasındakı (məğlub olmuş) Misirin yerini doldurmaq düşüncəsinə qapılmasın.

- Eyni şəkildə İordan çayının qərb sahili və Qəzza zolağının zəbt etməkdən başqa çarə yoxdur. Zəbt yoluyla Fələstinlilərin hərəkatının qarşısı alınar və Ərəb ölkələrinin Fələstinin müstəqilliyindən faydalanması puça çıxar. Beləliklə mühacir fələstinlilərin Fələstinə dönmə ümidlərini qırmış olarıq. Bu şəkildə onların məskən problemləri də bizim üçün daha asan olar.

- Bu vaxt Molla Mustafa Bərzaninin (indiki İraq Regional Kürd Rəhbərliyi başçısı Məsud Bərzaninin atası) İraqın şimalında möhkəmləndirilməsi lazım olduğuna inanmarıq. Bu şəkildə İraqın şimalında bir Kürd dövlətinin qurulmasının önü açılmış olar. Əlbəttə, təbii ki, bu dövlətin (öz ölkəsi Ərəbistanı qəsd etməkdədir) vəzifəsi də Ərəblərin birliyindən dəm vuran Bağdadı özü-özüylə məşğul etməkdir. Bu səbəbdən bizlər 1965-ci ildə Bərzanini maliyyə və hərbi baxımdan həm İraqın içindən həm də Türkiyə və İran üzərindən dəstəkləməyə başladıq.

**Hörmətli Prezident!**

Biz və siz razılaşaraq müttəfiq olduq ki, ortaq mənfəətlərimiz və naməlum qədərimizi bu təklif paketlərinin qüvvəyə minməsi və ya icra edilməməsiylə təyin edək. Təbii ki, əgər bu təkliflər diqqətə alınmaz və qüvvəyə minməzsə yox olmamız qaçılmaz olacaq.

Son olaraq bu fürsətdən istifadə edərək bir daha sizin üçün şan və şərəf və Amerika üçün zəfər və üstünlük diləyir və gələcəkdəki əlaqələrimizin inkişafını və irəliləməsini arzu edirəm.

***Sizə sadiq vəfalınız:***

***Feysəl ibni ƏBDÜL ƏZİZ***

**Səudiyyə Ərəbistanı Kralı**

*Bu məktub Sami Şərəfin yazdığı "Ümidsiz on illər" kitabında yer alıb*

# Sətri xəbərlər

* Ağrı şəhərində “Əhməd Xani” adına mədəniyyət və ədəbiyyat festivalı keçiriləcək.
* Rəsmi Həvler: İsrailin Kürdüstanda heç bir hərbi bazası mövcud deyil.
* Cənubi Kürdüstanda mədəniyyətə aid yeni radiostansiya açılacaq.
* Neçirvan Barzani: İraqın təbii sərvətləri ölkənin inkişafı üçün sərf olunmalıdır, silahlanmaq üçün yox.
* Kürdüstanın Həvler şəhərində tikinti şirkətlərinin geniş sərgisi keçirilir.
* Bir neçə gün əvvəl Kürüdstanın baş naziri Neçirvan Barzani, Türkiyədə rəsmi səfərdə idi. O, Türkiyə ilə neft və qazın satılmasına dair bir sıra sənəd imzalamışdır.
* Prezident Barzani Kürdüstanda olan Çexiya nümayəndə heyətini qəbul etmişdir.
* Kürdüstanın paytaxtı Həvler şəhərində “Kürd qadınlarının ikinci qurultayı” keçirilir. Qurultayda Kürdüstanın hər bir parçasından nümayəndə heyəti də iştirak edirlər. Türkiyə parlamentinin deputatı Leyla Zana da fəxri qonaq kimi qurultayda iştirak etmişdir. Sonda qəbul edilən qətnamədə Türkiyəyə müraciət olunaraq, Abdulla Öcalanın azadlığa buraxılmasına dair tələblər irəli sürülmüşdür.
* İtaliya hökuməti kürd tələbələri üçün unversitetlərdə xüsusi kvotalar ayırmışdır.
* Suriyadan qaçan minlərlə qaçqın Cənubi Kürdüstanda yerləşdirilmişlər.
* İraq və Ukraynanın hərbi əməkdaşlığı sona çata bilər. İraqın aldığı 62 ədəd BTR-4 zirehli maşınında ciddi nöqsanlar aşkarlanıb.
* Bağdadda terrok aktı baş verib, 10 nəfər ölüb, yüzlərlə yaralı var.
* İraq və ABŞ hökumətləri arasında yeni hərbi müqavilə bağlanılıb. İraqın neft mədənlərini müdafiə etmək üçün ABŞ İraqa pilotsuz hərbi təyyarə satmaq fikrindədir.
* Nuri Əl-Maliki: İranın nüvə probleminin həll olunması İraq üçün böyük töhvə olacaq.
* Suriya Kürtdüstanının Demokrat Partiyasının rəhbəri Əbdül Rəhman Əluci Həvler şəhərində vəfat etmişdir.
* Cənubi Kürdüstanda “kürd dilinin müdafiəsi və inkişafına dair” yeni qanun qəbul ediləcək.
* Türkiyə DİN rəhbəri: Suriya kürd separatçıları üçün hər cür şərait yaradıb. Hətta Suriyanın bir neçə şəhəri PKK-nın tam nəzarəti altındadır.
* İran XİN-in rəsmisi: Biz azad Kürdüstan idealogiyasını dəstəkləmirik. Hər kəs ayaqlarını öz yorğanına qədər uzatmalıdır.
* Türkiyə yazıçıları: Ərdoğan NATO-nun əmrlərini icra edir. Əl-Qaidə vasitəsi ilə, Suriyanın daxili işlərinə qarışır. Bu Türkiyəni fəlakətə gətirə bilər.
* Artıq 300 gündən çox müddətdir ki, Türkiyə Abdulla Öcalanla heç kəsin görüşməsinə icazə vermir.
* Fransa polisi ölkədə yaşayan bir neçə kürd ziyalısını həbs edib.
* Türkiyədə növbəti kürd qəzeti bağladılıb. “Demokratik Vatan” adlı qəzet “terroru təbliğ etməkdə” günahlandırılaraq çapına qadağa qoyulud.
* Türkiyə Parlamentinin kürd deputatı, məşhur hüquq müdafiəçisi Leyla Zanaya 10 il həbs verilib.

# ABŞ Türkiyə-İsrail üçün yeni təklif irəli sürüb

ABŞ Türkiyə ilə İsrail arasında uzun müddətdir davam edən böhranın aradan qaldırılması üçün yeni təklif irəli sürüb. İsrailin “Maariv” qəzetinin xəbərinə görə, Amerika tərəfinin təklifiylə İsrailin Baş naziri Binyamin Netanyahu ilə Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan arasında gizli telefon görüşməsi reallaşacaq. SalamNews “Doğan” agentliyinə istinadla xəbər verir ki, görüşdən sonra ABŞ-ın təklif etdiyi kimi, hər iki tərəf məzmun baxımından iki fərqli bəyanat verəcək. Plana görə, rəsmi Ankara “Mavi Mərmərə” gəmisindəki 9 Türkiyə vətəndaşının ölümündən sonra İsrailin üzr istədiyini, Təl-Əviv isə yalnız qarşıdurma nəticəsində baş verənlərdən duyduğu üzüntüsünü dilə gətirdiyini açıqlayacaq. Baş nazirlərin açıqlamalarından sonra diplomatik əlaqələrin səviyyəsi yüksəldiləcək və Türkiyə Təl-Əvivdə, İsrail də Ankaraya səfirini yenidən göndərəcək. ABŞ-ın təklifində “Mavi Mərmərə” hücumunda öldürülən türklər üçün ödənəcək tazminata bağlı yeni düstur da irəli sürülüb. Vaşinqton İsrailin təzminatı birbaşa ölənlərin yaxınlarına göndərmək yerinə, Türkiyənin İsrail ilə koordinasiya içərisində xüsusi bir fond qurmasını təklif edib.

# MÜSTƏQIL KÜRD DÖVLƏTI ELAN EDILƏ BILƏR

İraqın kürd muxtariyyatının prezidenti Məsud Bərzani rəhbərlik etdiyi muxtar vilayətin müstəqilliyinin elan oluna biləcəyi ilə bağlı növbəti bəyanatını səsləndirib. Qeyd edək ki, Məsud Bərzani 2006-cı ildən başlayaraq vaxtaşırı belə bəyanatlar verdiyi üçün, onun növbəti bəyanatı dünya mediasının diqqətini çəkmədi. Türkiyə mediasında da Bərzaninin bu bəyanatı sıradan bir xəbər kimi yer aldı. Bunun əsas səbəblərindən biri də M.Bərzaninin belə bəyanatlarla ötən illər ərzində dəfələrlə çıxış etməsidir.

Digər əsas səbəblərdən biri də builki Novruz bayram ərəfəsində İraq Kürdüstanının müstəqilliyinin elan oluna biləcəyi ilə bağlı aparılan geniş təbliğat işindən sonra da müstəqilliyin elan olunmamasının yaratdığı inamsızlıqdır. Həqiqətən də builki Novruz bayramı ərəfəsində İraqın kürd muxtariyyatının müstəqilliyinin elan olunacağı ilə bağlı elə geniş təbliğat aparılmışdı ki, bir çox ekspertlər bunu hətta artıq baş vermiş hadisə kimi şərh edirdilər. Həmin ərəfədə İraqın kürd əsilli prezidenti Cəlal Təlabaninin də Ankaraya səfərində bu mövzu haqqında uca səslə və nikbinliklə danışması, Bağdad hökuməti ilə kürd muxtariyyatı arasında fikir ayrılıqlarının kəskinləşməsi Kürdüstanın müstəqilliyinin Novruz bayramında elan oluna biləcəyi ehtimallarını artırmışdı. Bütün gözləntilənlərə baxmayaraq, müstəqilliyin elan olunmaması müstəqil Kürdüstan dövlətinin yaranmasında maraqlı olan dairələrdə ümidsizliyin güclənməsinə səbəb olmuşdu. Buna görə də Bərzaninin son bəyanatı geniş əks-səda doğurmamaqla yanaşı, yaranmış ümidsizliyi də aradan qaldırmadı. Ancaq proseslərin ciddi təhlili göstərir ki, kürdlərin müstəqil dövlətlərini elan etmələri üçün indi yaranmış şərait ötən illərlə müqayisədə daha əlverişlidir.

### Kürd dövləti üçün yeni şans

ABŞ-ın İraqa hərbi müdaxiləsi və Səddam Hüseyn diktaturasının devrilməsi İraqda kürd muxtariyyatının (Cənubi Kürdüstan) yaranması ilə nəticələndi. Oxşar ssenari indi də Suriyada baş verir. Suriya diktatoru Bəşər Əsədin istefasını tələb edən xalq etirazlarının zor gücünə boğulması vətəndaş müharibəsinə çevrildi və bu ölkədə yaşayan kürdlərə Qərbi Kürdüstan adlı muxtariyyatlarını elan etməyə imkan verdi.

Səddam Hüseyn diktaturasının devrilməsindən sonra İraqın yeni hökumətinin bütün ölkə üzərində nəzarəti bərpa edə bilməməsi kürd muxtariyyatının mərkəzi hökumətdən asılılığını formallığa çevirib. Bunun nəticəsidir ki, İraq kürd muxtariyyatı müstəqil dövlətin faktiki olaraq bütün atributlarına malikdir. Özünün bayrağı, gerbi və himni ilə yanaşı, öz parlamenti, prezidenti, konstitusiyası, ordusu olan İraq kürd muxtariyyatı müstəqil dövlət quruculuğu yolunda önəmli məsafə qət edib.

İndi də Suriyada Bəşər Əsədin istefası tələbi ilə başlayan etiraz aksiyası rəsmi Dəməşqin ölkə üzərində nəzarəti itirməsi ilə nəticələnib. Bu isə Suriyadakı kürd azlığa muxtariyyatını elan etməsinə imkan verib. Bəşər Əsəddən sonra hakimiyyətin kimin əlinə keçməsindən asılı olmayaraq, Suriyada heç nə daha əvvəlki kimi olmayacaq. Hətta B.Əsəd bir müddət də direniş göstərsə, Suriyanın bütövlüyü belə təhlükə altına düşəcək. Bundan ilk yararlanan isə heç şübhəsiz ki, kürdlər ola bilər. İraqdakı muxtariyyatla yanaşı, regionun başqa bir ölkəsində ikinci kürd muxtariyyatının yaranması isə vahid kürd dövlətinin qurulmasını qaçılmaz edəcək.

Yeni kürd dövləti üçün əlverişli siyasi vəziyyətin yaranmasının digər bir məqamı da ABŞ başda olmaqla, Qərblə İran arasında münasibətlərin hərbi



toqquşmalar həddinə çatmasıdır. ABŞ-ın İraqda olduğu kimi İranda da kürd faktorundan istifadə edəcəyi gözlənilir. Xüsusilə də onu nəzərə alanda ki, Vaşinqton İrana qarşı İraqdan fərqli taktika ilə müdaxilə etmək niyyətindədir, onda kürdlərin rəsmi Vaşinqton üçün önəmi artır. Əgər İraqa qarşı hərbi müdaxilədə ABŞ tərəfi piyadalardan istifadə etmişdisə, İrana qarşı müharibədə piyadalardan istifadə gözlənilmir. ABŞ-da yaxşı başa düşürlər ki, bu, onminlərlə, bəlkə də yüzminlərlə əsgərin ölümünə səbəb ola bilər. Buna hətta İrana qarşı hərbi müdaxilənin ən qızğın tərəfdarları da cəsarət edə bilməzlər. Deməli, İranda küçə döyüşlərini ABŞ əsgərlərinin əvəzinə başqası etməlidir. İranın iki ən böyük etnosu - Azərbaycan türkləri və farslar bu rolu oynamaq istəmədiyi halda, bu missiyanı yerinə yetirəcək ən uyğun etnik kürdlərdir. Bunu düşünməyə əsas verən məqam isə yalnız İraq təcrübəsi deyil.

Məlumdur ki, son illər ABŞ və İsrail PKK-nın İran ərazisində fəaliyyət göstərən qolunu, PJAK-ı faktiki olaraq müstəqil təşkilata çevirib və onu gücləndirib. İndi bu terrorçu təşkilat İran ordusu ilə döyüşlərə girməkdən də çəkinmir. Bundan başqa, bu terrorçu təşkilat İran ərazisində terror və diversiya aktları da həyata keçirir. Bütün bunlar isə, İrana qarşı hərbi müdaxiləyə təkid edən İsrail və onun müttəfiqi ABŞ üçün kürdlərin vazkeçilməz qüvvə olmasından xəbər verir. Beləliklə, dünyada və regionda baş verən proseslər kürd dövlətinin yaranması üçün ötən illərlə müqayisədə daha əlverişlidir.

### Kürd ordusu kimə qarşı yaradılır?

Ekspertlər diqqəti daha bir incə məqama - İraq kürd muxtariyyatının silahlı dəstələri olan peşmərgələrdən son bir ildə iki nizamlı ordu birləşməsinin yaranmasına yönəldir və bu zaman sual edirlər ki, bu ordu kimə qarşı döyüşəcək? Burada bir neçə variant müzakirə mövzusu olsa da, peşmərgə birləşmələrinin Türkiyəyə qarşı istifadə ediləcəyi inandırıcı görünmür. Birincisi, bunu ABŞ-la Türkiyənin strateji müttəfiq olması istisna edir. İkincisi, peşmərgə ordusunun dünyanın ən qüdrətli ordularından biri olan Türkiyə ordusu ilə döyüşünün hansı nəticələr verə biləcəyi kürd liderlərinə də məlumdur. Digər tərəfdən, son illər Ankara ilə Ərbil arasında münasibətlərdə anlaşma hiss olunur. İraq kürd muxtariyyatının liderləri tez-tez Ankaraya gəlir və Türkiyə dövlətindən müxtəlif məsələlərlə bağlı kömək istəyirlər. Qarşıdakı günlərdə isə İraq kürd muxtariyyatının baş naziri Neçiravan Bərzaninin Ankaraya gəlişi gözlənilir. Kürd liderin Türkiyə səfərində məqsədin muxtariyyatın iqtisadiyyatının inkişafı üçün yardım istəmək olduğu bildirilir.

İraq kürdlərinin lideri Məsud Bərzani ilə Türkiyə rəsmiləri arasında da münasibətlər çox yaxşıdır. İraq kürd muxtariyyatına tam nəzarət edən Bərzani ailəsi isə hazırda yalnız İraq kürdləri arasında deyil, bütün kürdlər arasında böyük təsirə malikdirlər. Eyni zamanda, kürdlərin liderləri başa düşürlər ki, regionun bütün dövlətləri və xalqları ilə düşmənçilik etməklə müstəqil dövlət qura və onu yaşada bilməzlər. Bütün bunlar peşmərgə ordusunun Türkiyəyə qarşı döyüş üçün yaradılmasını istisna edir. Deməli, bu ordudan İraq, Suriya və yaxud İrana qarşı istifadə ediləcək. Burada ən az ehtimal edilən Suriya variantıdır.

Lakin istisna deyil ki, Suriyada vətəndaş müharibəsi başa çatdıqdan sonra hökumətin kimin əlinə keçməsindən asılı olmayaraq Dəməşq separatçılara qarşı mübarizəyə başlayacaq. Əgər proseslər belə bir ssenari üzrə inkişaf edərsə, peşmərgə ordusunun Suriya ordusuna qarşı müharibəyə başlayacağı istisna deyil. Ancaq hələlik Suriyada baş verənlər bu ölkənin öz bütövlüyünü qoruya biləcəyini istisna edir. Deməli, İraq və İran variantları qalır. Hazırda İraqın mərkəzi hökuməti o qədər zəifdir ki, onun kürdlərlə müharibəyə başlayacağı inandırıcı sayılmır. İraq kürd muxtariyyatı liderlərinin Bağdad hökuməti ilə heç bir məsələdə hesablaşmadığı, mərkəzi hökumətin isə buna göz yumması mərkəzlə əyalət arasında yaxın zamanlarda müharibəni istisna edir. Əksər ekspertlər belə qənaətə gəliblər ki, Qərb və İsrailin dəstəyi ilə İraqda yaradılmış peşmərgə ordusundan İrana qarşı hərbi əməliyyatlarda istifadə olunması nəzərdə tutulub.

### Azərbaycanın maraqları təhlükə qarşısındadır

Dünyada və xüsusilə tarixi Azərbaycan torpaqlarının sərhədləri yaxınlığında çox böyük proseslər baş versə də, bunların bizim maraqlara törədə biləcəyi təhlükə təəssüflər olsun ki, nəzərə alınmır. Ancaq kürdlərin İranın bəzi əraziləri kimi Qərbi Azərbaycan ostanının ərazilərinə də iddia etdiyi sirr deyil. Hətta bəzi xəritələrdə Şərqi Azərbaycan ostanlığına daxil olan tarixi torpaqlarımız gələcək kürd dövlətinin ərazisi kimi göstərilir. Azərbaycan xalqı bu məsələləri də nəzərə almalı və daima gündəmdə saxlamalıdır. Əlbəttə, söhbət yalnız Azərbaycan Respublikasının vətəndaşlarından getmir. Bu, 50 milyonluq Azərbaycan xalqının problemidir. Lakin Şimali Azərbaycan ərazisində milli dövlətin mövcudluğu onun üzərinə daha çox öhdəliklər və məsuliyyət qoyur.

Bu gün Rusiya prezidenti V.Putin İranda yaşayan milyonlarla azərbaycanlını bəhanə edib, bu ölkəyə qarşı hərbi müdaxilənin əleyhinə çıxır. Putinin sözlərinə görə, müharibə başlayarsa, İranda yaşayan çoxmilyonlu azərbaycanlılar hərbi münaqişədən zərər görməmək üçün Azərbaycan Respublikasına, oradan isə Rusiyaya qaça bilər. Bu isə Rusiyada humanitar vəziyyəti qəlizləşdirər. Putin bildirib ki, Rusiya məhz bu səbəbdən İrana qarşı hərbi müdaxilənin əleyhinədir.

İrandakı azərbaycanlıların İrana qarşı böyük dövlətlərin siyasətində önəmli faktora çevrilməsinin bir nümunəsi olan bu bəyanat bizləri də regionda baş verən proseslərə daha diqqətli yanaşmağa vadar etməlidir. Artıq Azərbaycan dövlətinin Qərbin İrana qarşı planları, onun prespektivləri və nəticələri ilə bağlı aydın siyasət müəyyənləşdirmək dövrü çatıb. Əks halda Azərbaycan xalqının milli maraqları Qarabağda olduğundan da böyük zərər çəkə bilər.

***Xəqani Cəfərov, mia.az***

www.netewe.com

# "...BU HANSI KÜRDÜSTANDIR..."

## *Xalq yazıçısı ƏLİ VƏLİYEVin " Budağın xatirələri" romanından*

Hər nə qədər unudulmaz dramaturqumuz İlyas Əfəndiyev desə də ki, GERİYƏ BAXMA, QOCA insan istər-istəməz geriyə baxmalı olur və özəlliklə yazar tayfasının,şəxsən mənim özüm zaman-zaman geriyə baxmağa məcburam. Geridə bir o qədər şirin günlər olmasa da, bir çox təsəllivericì şeylər yaşanmışdır. Bu məqamları və olanları yada salmaq həm də ibrətamiz bir ovqatın yaranmasına səbəb olur. İstər şəxsi yazarlıq həyatımızda,istərsə də bizdən öncə yaradan sənətkarların yazılarında elə anlar var ki,bu günümüzün içindən çıxan məqamların ta özüdür. Bu proyektimizdə öz yazılarımızla birlikdə zaman-zaman klassiklərin əsərlərindən istifadə edəcəyim yazılarda son dərəcə öyrədici məqamların olduğunu görəcəksiniz.

* * *

...mövhumat və xurafat tərəfdarlarının, cəhalət və nadanlıq dünyasının külünü göyə sovuran istedadlı sənətkarın, maarif bahadırının adını eşitmişdim, əsərlərini oxumuşdum, üzünü görməmişdim. Mən bu nadir istedad, kəskin qələm, dərin kamal sahibi ilə söhbət eləyəcək, onun suallarına cavab verəcəkdim. Bu böyük müəllimin qabağında dodaq tərpədib söz demək üçün fərasətli tələbə lazım idi. Mən özümü onun tələbəliyinə layiq görmürdüm. Ancaq geri qayıtmağı şənimə kəsir sayıb, Mirzə Cəlilin yanına getdim.

Otaq iri idi. Burada divara vurulmuş bir neçə şəkil olmasaydı, mənzildən çox kabinetə oxşardı. Şəkillər o qədər bahalı deyildi. Çoxusu da qadın surətləri idi.

Mirzə Cəlilin şəklini çox gördüyümdən, stol dalında fikirli oturmuş kişiyə gözüm sataşan kimi tanıdım. Sifəti qırışmağa başlayan qalınbığlı yazıçı qapı açılan kimi başını yuxarı qaldırıb baxdı. Məni görcək qələmi yerə qoyub dayandı.

Mən salam verib baş əydim. O, salamımı alıb yanına çağırdı. Gedib əl vermək, görüşmək, yorulmaq bilmədən qələm çalan barmaqlarını ovcumun içində saxlamağa cəsarət eləmirdim. Utana-utana stoluna yaxınlaşıb durdum. Mirzə Cəlil yerindən tərpənməyib, yavaş bir səslə xəbər aldı:

- Hardan gəlmisən, bala?

- Kürdüstandan.

Qaradinməz kişi bığına sığal çəkib, öz-özünə dedi:

Aha... Əsl mən deyəndir. Öz ayağıyla gəlib çıxıb.

Ayağa durdu. Orta stolun yanındakı stullardan birisini yaxına çəkdi.

- Otur, bala.

Oturdum. Mənə elə gəldi ki, onun kefi yoxdur. Astadan soruşdu ki:

- Bu hansı Kürdüstandır?

Cavab verməyə çətinlik çəkdim. "Kürdüstan birdir, mərkəzi də Laçındır. Mirzə Cəlil niyə belə sual verir?".

- İraq Kürdüstanı, İran Kürdüstanı, Ermənistan Kürdüstanı... Təzə bir Kürdüstan də siz düzəltmisiniz. Hə, deyir Laçında təzə bəylər zühur eləyib. Alverçiləri sağ qoltuğuna vurub, seyidləri sol qoltuğuna, düşüblər kürdlərin üstünə...

Mən danışmaq istəyirdim ki, Mirzə Cəlil davam elədi: - Musa, İsa, Ömər, Əbubəkr də yenidən dünyaya gəlib bəylərə kömək eləyirlər, hə...

Bu sözləri deyəndən sonra kağıza nə isə yazıb, başını qaldırmadan xəbər aldı.

- Kürdüstana böyük bir komissiya getmişdi, bir iş gördü, yoxsa o da seyiddən, peyğəmbərdən qorxub yazılanları ütülədi?

Kürdüstana komissiya göndərildiyindən, ora nə vaxt getdiyindən, nə iş gördüyündən xəbərsiz idim. Mirzə üz vurub soruşsa da, bir söz deyə bilməyəcəkdim. Yaxşı ki, Mirzə Cəlil cavab gözləməyib, sualı dalbadal verirdi:

- Eşitdiyimə görə, Kürdüstanda qurd qoyunla gəzir. Qoyun inanıb otlamaqla məşğul olur. Qurd görür ki, qoyunun başı qarışıqdır, başlayıb canavarlığa. Az yox, azacıq yox, hər gecə üç-dördünü boğur.

Mirzə Cəlilin yazılarını nə qədər asan oxuyurdumsa, dediklərini bir o qədər çətin başa düşürdüm. Qəribə idi ki, o həm mənimlə söhbət eləyirdi, həm də yazırdı. Mənə elə gəlirdi ki, burada işləyənlərin hamısında o xasiyyət var. Həm adamla danışırlar, həm də yazırlar.

Mirzə Cəlil yazdığını stolun yeşiyinə atıb, üzümə baxdı:

- Görünür, sən lap uzaq kəndlərdə olursan, heç nədən xəbərin yoxdur.

- Xeyr, mən qəza mərkəzində yaşayıram.

- Nə iş görürsən?

- Siyasi maarif şöbəsinin müdiriyəm.

- Tutulanlardan, işdən çıxarılanlardan, əsgərliyə göndərilənlərdən xəbərin yoxdur? Ömərlə Əbubəkrin əl-ələ verib yenidən xəlifə olmağa çalışdıqlarını eşitməmisən?

Dedim:

- Mirzə, əsgərliyə göndərilən mən özüməm.

Cəlil Məmmədquluzadənin çöhrəsindəki kədər seyrəldi, tamam çəkilmədi. Alnındakı qırışlar aralandı, büsbütün görünməz olmadı. Sol əlinin şəhadət barmağı ilə bığlarının arasını üzüaşağı qaşıya-qaşıya dedi:

- Bəs nə təhər müxbirsən ki, komissiyanın gedib-gəlməsindən xəbərin yoxdur?

Mən əhvalatı söyləyəndən sonra Mirzə Cəlil dayanıb fikrə getdi. Sifətini dəyişdirmədən mənə dedi:

- Kürdüstanın qonşusu erməni kəndlərindən başsağlığı almamışdınız?

- Ölən kimdir ki?

- Bəhlul Behcət Zəngəzurinin üzəngi dostu, Hacı Qara iman ocağının müqəddəs vücudu Hacı Qasım Çələbi.

Mətləbdən halı olduğu üçün bir şey deməmdim. Mirzə Cəlil yenə nə isə yazıb eşiyə atdı.

- Neçə aydır Laçından çıxmısan?

- Beş aydan artıqdır.

- Üzündə nuri-Məhəmməd var imiş.

Utanıb qızardım. "Üzündə nuri-Məhəmməd var imiş?". Bununla Mirzə Cəlil nəyə işarə vururdu?

- Bakıdan gedən komissiya o qədər biabırçılığın üstünü açdı ki, adam deməyə utanır, yazmağa xəcalət çəkir.

Amma nə eləyəsən? Şairlərdən birisi yaxşı deyib ki:

Millətin yarısı əlil, yarısı zəlil,
Dərdini yazmaqla qurtaran deyil.

Mirzə bunu deyib birdən üzümə çox mənalı baxdı.- Bala, harda oxumusan, təhsilin nədir? Biliyin-zadın



çatırmı?

Mən başımı aşağı salıb cavab vermədim. Mirzə utandığımı yəqin eləyib, özü danışdı:

- İnqilabdan qabaq bir çox hallarda dözmək olardı. İndi isə dözmək olmaz. - Yenə də gözümü üzümə dikdi .- Atalar yaxşı deyib ki, qurddan qorxan qoyun saxlamaz. Köhnə dünyanın qalıqları bəzən güclü olsa da, qorxmaq gərək deyil, çünki dünyada həqiqətdən güclü qüvvə yoxdur. Həqiqət isə bizim ölkədə bərqərar olub. - Sonra məndən soruşdu: - Bura gəlməkdə məramın nə idi, oğul?

Mən utandığımdan pul barədə kəlmə kəsməyib dedim:

- Sizinlə görüşməyə, jurnalın əməkdaşları ilə tanış olmağa gəlmişəm.

Əli Nəzmi içəri girdi. Mirzə Cəlil üzünü ona tutdu.

- Yaxşı deyiblər ki, söhbətin şirin yerində moltanı gəldi ki, "Allah saxlasın".

Əli Nəzmi pərt olmadı.

- Mirzə! Budaq yoldaş jurnalımızın fəal müxbirlərindəndir. Bizdən qonorar almayıb. Xəstəxanadan çıxdığı üçün bəlkə...

Mirzə Cəlil onun sözünü ağzında qoyub, mənə dedi:

- Məsləhət görürəm, hər yerdə vəkilsiz danış.

Yanağım od tutub yanır, tər dabanımdan axır, utandığımdan gözlərim ətrafı görmürdü. İki qoca dost zarafatlaşır, ortada məni xəcalət təri basırdı. Birinci dəfə Mirzə Cəlillə görüş, onda da pul söhbəti!

Əli Nəzmi mənə göz vurub işarə eləyirdi ki, danış. Mən isə ofsunlanmış kimi dayanıb baxır, Mirzə Cəlilin axırıncı sözünü gözləyirdim. Yazdığı kağızı mənə uzadıb dedi:

- Verərsən Marusyaya, ağzını şirin edər.

Mən yaxınlaşıb onun əllərini sıxdım. Əllər yumşaq, pilə kimi idi. Mən onun əllərini buraxmaq istəmirdim. O, üzümə baxa-baxa dedi:

- Bala, zorunu sınamaq istəyirsənsə kifayətdir. Xəstəxanadan təzə çıxmış bir adamın gücü bu qədər olanda, beş-altı ay qabaq nə cür qüvvə sahibi olduğu məlumdur.

Mən aralanıb getmək istəyəndə o dedi:

- Arabir səni əsgərliyə göndərib xəstəxanada yatırtsalar, əsl quş həddinə düşərsən.

Mən baş əyib gedəndə Mirzə könlümü aldı.

- Müxbir gərək qorxmaya. Müxbirin birinci düşməni qorxaqlıqdır.

Dönə-dönə razılıq eləyib çıxdım. O qədər tutulmuşdum ki, kağızı Marusyaya verməyib pilləkənlərlə aşağı düşdüm. Küçədə xeyli dayanıb toxtadım. Nəfəsimi dərdim, yadıma düşdü ki, Marusyadan pul almalıyam. Yuxarı qalxıb Əli Nəzminin yanına girəndə otağı boş gördüm, bir az durub gözlədim. Mirzə Cəlil oturan otaqdan qəhqəhə səsləri eşidilirdi. Mirzə Cəlil təzə yazdığı hekayənin mövzusunu danışır, Əli Nəzmi ilə Marusya gülürdülər. Çox gözləməyib, "Kommunist" qəzeti idarəsinə qayıtdım. İdarədə az adam qalmışdı. İş qurtardığı üçün işçilər getmişdilər.

"Şərq" mehmanxanasına qayıtdım. Sabah yox, biri gün Şuşaya getməyi qət eləyib, dəmiryol vağzalına yollandım.

***Tofiq Abdin, baku.adalet-***




## OD-OCAĞIM DAĞILMIŞ

Dərd əlindən min dağı var sinəmin,
Ata yurdum dağım-dağım dağılmış.
Behiştdən də gözəl idi Laçınım,
Bilirsənmi nə növrağım dağılmış,
Ata yurdum dağım-dağım dağılmış!

Yaralıyam, yaralıyam, yaralı,
Qara bağrım yüz yerindən paralı.
Baba ruhu küsüb keçir aralı,
Min bir illik od-ocağım dağılmış,
Ata yurdum dağım-dağım dağılmış!

Qanlı gündə qana döndü bulaqlar,
Şərbətinə yetməz təşnə dodaqlar.
Güllələnib çiçək açan budaqlar,
Baltalanıb bağça-bağım dağılmış,
Ata yurdum dağım-dağım dağılmış!

Baxtım döndü, idbar oldu gözəlim,
Ötən günlər yel ağzında xəzəlim.
Əsir düşdü axırımla əzəlim,
Həm məzarım, həm qundağım dağılmış,
Ata yurdum dağım-dağım dağılmış!

Mən Ələsgər sazından bir sədayam,
Bir yaralı dodağında nidayam.
Dərd içində bir addımlıq adayam,
Dalğa vurub, solum-sağım dağılmış,
Ata yurdum dağım-dağım dağılmış!

Cənnət diyar batdı ölüm hisinə,
Ləkə düşdü camalına, süsünə.
Könlüm qisas atəşindən isinə,
Məhşər gəlib, uca dağım dağılmış,
Ata yurdum dağım-dağım dağılmış!

## QİSASIMI AL DEYİR

İblis necə tələ qurdu bilmirəm
İşıqlının, Dəlidağın oğluna?
Namərd necə qəsdə durdu bilmirəm
Şir yuvası Qarabağın oğluna?

Kimlər bizi ala qoyub köçürtdü,
Qan içində qıl körpüdən keçirtdi?
Su yerinə kimlər ilğım içirtdi
Həkərinin, Ağbulağın oğluna?!

Əcdadımız döyüşlərdə sınandı,
Qeyrət oldu ilk sınağı, son andı.
Qüvvətinə, qılıncına inandı,
İnanmadı qurumsağın oğluna.

Dərd boyamış – dağlar kimi başım ağ,
Ömür keçdi, həm yazım, həm qışım ağ.
Yaraşarmı miskin ömrü daşımaq
O diyarın, o torpağın oğluna?!

Ulu dağlar döyüş təbli çal deyir,
Babaları bir dəm yada sal deyir.
Dustaq diyar qisasımı al deyir
Ay-ulduzlu bu bayrağın oğluna.

Alınmazmı azğın başın havası,
İntiqamdır yaramızın davası!
Rəvadırmı laçınların yuvası,
Əsir düşə yapalağın oğluna?!

*4.5.1999*




## REBBÊ JORÎ N, RİCA DİKİM, VÊ DUA MİN QEBÛ L BİKE

Xwezil, xwezil, zû bihata ewa roja,
Welatê min derkata ji dewa-doza.
Neyarêd me bişewitya, bibiya rijî ,
Dost-aşî tî yê axa daykam têkra tijî .
Dê û dota bixistana cilê tarî ,
Kurdistanam bixemiliya bê hejarî .
Ezmanê mij î dî bibuya çî k û sayî
Gelêm axa kal û bava bibuya xayî .
Çem û kanî ji xwî na sor paqiş bû na,
Rêwyê rî ya êwira da ne zeryana.
Sosin, rihan, kulî lkêd al, nergî zêd bî n,
Xasbaxçara bişandana bersî v, mizgî n.
Hemû bî nber têketana xewa şirî n,
Bilbil şabû ya, biqalanda reng û rengî n.
Xort tev keça bigeryana daristana,
Şa bibyana gund-bajara, deşt-zozana.
Zagros, Nemrû d, Agrî ya kal, Sî panê sar
Çavronkayî bidana hev kubar-kubar.
Amed, Bitlî s, Makû, Bî ngol, Qers, Qaqizman,
Cizî r, Mereş, Mardî n, Ruha, Wan, Erdehan.
Dihok, Zexo, Mehabada dî rok zêrî n,
Kerkû k, Hewlêr, him Helebce dil kul-birî n.
Dêrsim, Serdeşt, Silêmanî , her çar parçe,
Nav êgir da nebû yana parçe-parçe.
Dibistana biaxivya zimanê dê,
Zulm-zelû lî î dî biçû ya ji vê dinê.
Min jî hilda kaxet, qelem, pirtû kêd xwe,
Gelê xwe ra têr bixanda helbestêd xwe.

## CELLAD

Zimanê te boynet teye,
Ew ji min ra pêwî st nî ne.
Zimanê min heya mine,
Destê xwe jê vekişî ne.

Te Dardanêl kir milkê xun,
Ser wê tune qet çavê min.
Behra Wanê ruhê mine,
Destê xwe jê vekişî ne.

Konstantî nopol bû Î stanbû l,
Cahan lal bû , ne axivî .
Amed, dî rok, rewşa mine,
Destê xwe jê vekişî ne.

Tu nû h hatî ser vê axê,
Şû n, milkê te li vir tune.
Dicle, Firat çavên minin,
Destê xwe jê vekişî ne.

Ayasofya te kir mizgevt,
Min jî tev te li vir mêj kir,
Çevlikamin ne Bî ngole,
Destê xwe jê vekişî ne.

Ji ku hatî , hetanî ku,
Pêş dî rokê rû reşî tu.
Qetilkarî , him jî kedxur,
Nabe bira, tu cara gur.

Agrî , Sî pan tacê minin,
Mû rad, Erez hêsrên minin,
Qazî , Barzan kalên minin,
Dest ji axam vekişî ne.

Te sedava gel helandin,
Reh-rî çalên wan rizandin,
Ez kardû xim, ez nahelim,
Dest pêsî ra min vekişî ne.

Erf, edetêm pêpez meke,
Qeyd-zincî rê milêm veke,
Aşî tî yê bide gela,
Dostî bibe xemla dila.
Dest ji zû lmê vekişî ne.
Dest ji zarêm vekişî ne.




## GÖRÜB

Gənc ikən sevirdim, mənə "yox" dedin,
İndi qocalmışam, yaş işin görüb.
Qayıda bilmərsən, keçən günlərə,
Sən də sürmə çəkmə, yaş işin görüb.

Bir gün əksilmədi dumanım, çənim,
Düşündükcə artdı başımda dənim.
Ağlımın yerinə ilahi mənim
Başıma saldığı daş işin görüb.

Sevgilinlə baş qoymadın balınca,
Öləydim kaş, bu halını görüncə.
Ağlamaqdan, sızlamaqdan dalınca,
Əmrahı kor edib, yaş işin görüb.

## KÖKLƏNMİŞƏM

Yarandığım əzəl gündən,
Dərd, qəmə köklənmişəm.
İçərimdə çəkmək üçün,
Sitəmə köklənmişəm.
Mənim də Tellim var idi.
Getdim qəbri üstünə.
Özümə baxıb gördüm ki,
"Dilqəm" köklənmişəm.
Hələ də ayrılmamışam,
Qəflətdəyəm yatıram
Dost tanışlar, selə, döndü.
Qijovunda batıram
İstedadı allah, verib,
Xiridardı satıram
Alandan umacağım yox,
Hatəmə köklənmişəm.
Övladından, qardaşımı
Vallah uca tutmuşam.
Öz oğlumu girov qoyub
Qardaşımı gətirmişəm.
Özümün də səfim olsa
Öz-özümə demişəm.
Həqiqəti car etməyə
Atama köklənmişəm.

## ÖL

Ey Əmrah, zamanə gedərsə belə,
Milyonçu ilahi sayılmamış öl.
Öyrədərlər əzrayılı rüşvətə,
Qəflət yuxusundan ayılmamış öl.

İndiki ürəklər dönübdür buza,
Ay zavallı millət, gedirsiz duza.
Buluda, günəşə, aya, ulduza,
Atmosferə vergi qoyulmamış öl.

Öz başın ağrıdır yüz danışanlar.
Dövrün nəbzin tutur, üz danışanlar.
Nələr çəkməyibdir, düz danışanlar.
Nəsimitək dərin soyulmamış öl.

İndi Avropaya salmışıq meyil,
Onların qanunu qanımı yeyir.
Kişilər doğacaq yaponlar deyir
Sən Allah o, nəsə doğulmamış öl.

Satqın satdı yağı kəsdi yolunu,
Qırdı qanadını qırdı qolunu.
Girov vətəninə baxmaq pulunu
Verməsən gözlərin oyulmamış öl.

Haqqı demək sənə oldu pay Əmrah,
Bu qürbətin pis günlərin say, Əmrah.
Xalqa ki, bələdsən Əmrah, ay Əmrah.
Bəhlulu divanə deyilməmiş öl.

## GETDİ

*(Təcnis)*

Bir gözəl qəlbimdə, yaman sevgimi
Bircə baxışıyla oyatdı getdi.
Elə bil kamana qoyub oxunu,
Bağrımın başını oyatdı getdi.

İçimi göynədir sevdiyim yara,
İstərəm yaramı sevdiyim yara.
Çalışdım çatmağa sevdiyim yara,
Mən piyada oldum, oy atdı getdi.

Deməynən gözəldi, gözəldən gözəl,
Düşübdür sağıma gözəldən gözəl.
Qədərsiz görmüşəm gözəldən gözəl.
Əmrahın qəlbinə o, yatdı getdi.

## QAYIDIM

Ay erməni, ay imansız, aç yolu,
Yurdumdan-yurduma keçim qayıdım.
Yerin şumladığın qəbrəstanlığa,
Qanlı göz yaşımı töküm qayıdım.

Bağ becərdik, demə qismətmiş sənə,
Barın yeyib bizə edirsiz mənə.
O, torpaq o qədər şirindir mənə,
İstəmirəm zəhər əkim qayıdım.

Getməz sinəsindən dağı dağların
Hələ də gözləyir, ötən çağların.
Boş-boşuna axan buz bulaqların
Suyundan bir ovuc içim, qayıdım.

Sənin suruyadan olub gəlişin,
Ancaq torpaq qoparmaqdı vərdişin.
Bayquşa satdığın kəndin görnüşün
Gözümlə didəmə çəkim qayıdım.

Əmraham, olmuşam vətən vurğunu,
Pöyada oluram yollar yorğunu.
Seyid Bəşir demiş, sən it oğlunu,
Aşot it oğlundan seçim, qayıdım.




## «HƏYATI ZİNƏTLƏNDİRƏNLƏR» KİTABINI OXUYARKƏN

Əhməd, korlanıbdır sənin yaddaşın,
Etdiyim yaxşılıq çıxıb yadından.
Mənimlə birlikdə ağarıb başın,
Bu bir həqiqətdir, nə gizlət, nə dan.

Nələri söyləyim, nələri sənə,
Unutmusan artıq keçən günləri,
Bu paxıllıq qalıb səndə ənənə,
Yaddan çıxarmısan o boz çölləri.

Taytuşunu doldurmusan kitaba,
Məni yaddan çıxarmısan üstəlik.
Sözlərimi indi alın hesaba,
Yaxşılıq etməkdən olmuşdum ləlik.

Kürdoğlunun niyə çəkilmir adı?
Bir də mənim kimi şagird yoldaşın.
Niyə unutmusan o istedadı,
Belə xoşagəlməz fikirdən daşın.

Yazırsan, həyatı zinətləndirib,
Yaddan çıxıb alim olan Qəmxarın.
Lazım olmayanlar kitaba girib,
Kənarda, elm ilə dolan Qəmxarın.

Doğma qardaşıma etmədiyimi,
Sənə eyləyirdim, sevirdim deyə.
Sənin qədər istəmirdim heç kimi,
İndi təəssüf etdim sənin tək bəyə.

Çox sözlər deyərdim, gəldi gözümə,
Bayramla Gülbəniz, bir də nəvələr,
Təskinlik də verdim özüm-özümə,
Qınaya bilərdi məni «dəvələr».

Olan yaxşılığı başa qaxmazlar,
Fəqət nə etməli, söz gərdişindi.
Görən gözə qara eynək taxmazlar,
Tənqid Nərimanın bir vərdişidir.

## GÖZƏLİM

Mənim ad günümü təbrik etmədin,
Bir vaxt məndən ötrü yanan gözəlim.
Söyləyirəm sənə düz yol getmədin,
Eşqi, məhəbbəti danan, gözəlim.

Heç vaxt sevməmişəm yoldan ötəni,
Sevmişəm, sevirəm sevgi sevəni.
Anan da bilirdi sevirəm səni,
Qalsaydı, danlardı anan, gözəlim.

Yaddan çıxartmışam keçən günləri,
Sən idin qəlbimdə ən gözəl pəri.
Səndən başqa sevmədim bir nəfəri,
Sən idin qəlbimdə canan, gözəlim.

Necoldu saydığın ülvi məhəbbət?
O sevgin daimi deyilmiş əlbət.
Yadıma düşdükcə bürüyür dəhşət,
Onda qəlbim olur sınan, gözəlim.

Həqiqi sevənlər olmayır nadan,
Sən olurdun mənə daimi yanan.
Gözləyirdik ola bəlkə bir sonan,
Heyif ki, olmadı sonan, gözəlim.

Nəriman Əyyubam, sevirəm yenə,
İnanmırdım məni sevənlər dönə.
Bu yeni şeirimi həsr etdim sənə,
Sevgi ürəyində donan, gözəlim.

www.netewe.com

# ŞƏRƏF XAN BİDLİSİNİN «ŞƏRƏFNAMƏ» ƏSƏRİ KÜRD XALQININ TARİXİ MƏNBƏYİ KİMİ

**Əvvəli ötən sayımızda**

«Şərəfnamə»nin müəllifi Həsən bəyi ədalətli qeyd edərək, onun qanunnaməsini ona görə bəyənir ki, XVI əsrdən etibarən Osmanlı dövləti tərəfindən Kürdüstanda daha ağır vergi mükəlləfiyyətləri tətbiq edilirdi. Məhz buna görə də Uzun Həsən qanunnaməsinin tətbiq edildiyi ölkələrdən bəhs edən Bidlisi, həmin ölkələr sırasında Kürdüstan adını qeyd etməmişdir. Osmanlı sultanlarının kürd xalqına qarşı mənfi siyasətlərini açıq surətdə qeyd etməyən müəllif, onların ağır vergi mükəlləfiyyətlərini lazımi qədər göstərməmişdir. O, yalnız həmin vergiləri müqayisəli şəkildə vermklə kifayətlənmişdir.

Bidlis əmirliyində tətbiq edilən vergilər aşağıdakılardan ibarətdir, tamğa, xərac, cizyə, dini və ənənəvi vergilər, yaylaq vergisi, qışlaq vergisi və s.

T a m ğ a. Sənətkarların istehsal etdiyi malın bazarda satılan zaman tacirlərdən və alverçilərdən alınan vergiyə deyilirdi. (18, 117-118), bu vergi bilavasitə istehsalçılardan deyil, satıcılardan alınırdı. Lakin verginin miqdarı və ölçüsünü əmtəənin keyfiyyəti müəyyən edirdi. Yaxşı naxışla toxunan xalça və sairədən çoxlu tamğa vergisi alınırdı. Bu hal bir tərəfdən sənətkarlığın inkişafına mane olur, digər tərəfdən isə istehsalçıların vəziyyətini ağırlaşdırırdı. Çünki alverçilər vergi mükəlləfiyyətini nəzərə alaraq, xırda istehsalçıların mallarını daha ucuz alırdılar və onun keyfiyyətinə fikir vermirdilər.

XV-XVI əsrlərdə Kürdüstanın sənətkarlar yaşayan şəhərlərinin əsas gəlir mənbəyini tamğa vergisi təşkil edirdi. Buna görə də kürd əmirliklərini istila edən hökmdarlar, onun tamğa vergisini almaqla kifayətlənirdilər. Bidlisi yazır ki, Əmir Teymur Heqari əmiri İzzəddin Şirin hökmdarlığını bir fərmanla qəbul etdi və bu vilayətin tamğa vergisi Əmir Teymura verilməli oldu (76, 91).

Xərac. Xərac əsasən torpaq vergisidir (224, 262; 36, 119). Əkin torpağına malik olan müsəlman və qeyri-müsəlmanlar bu vergi müəkəlləfiyyətini ödəməli olurdular (6, 210). Bidlisinin yazdığına görə XVI əsrin ortalarında Osmanlı məmurları Muş nahiyəsində yaşayan qeyri-müsəlmanlardan yenə də xərac vergisi alırdılar (76, 354). Qunabadi isə xərac vergisinin asılı Bidlis əmirliyinin öz müstəqilliyini saxlamaq üçün verdiyi vergi mənasında qeyd etmişdir (113, 294).

Beləliklə, aydın olur ki, XV-XVI əsrlərdə xərac vergisi Bidlis əmirliyində yenə də mövcud olmuşdur.

C i z y ə. Cizyə vergisi ərəblərin islam dinini yaydıqları zamandan (VII əsrdən) başlanmışdır (36, 125). Yəni ərəblər müsəlman dinini qəbul etməyənlərdən cizyə adı ilə adam başına görə vergi alırdılar.

«Şərəfnamə»dəki məlumata görə XVI əsrdə Bidlis əmirliyində yaşayan qeyri-müsəlmanlardan hər il adambaşına 70 Osmanlı axçası hesabı ilə cizyə alınırdı (76, 354).

Əhməd Rasim yazır ki, cizyə xristianlardan alınan verginin dini və rəsmi adıdır (53, 463).

«Şərəfnamə»də Çermuk əmirliyinin 1516-cı ildə Osmanlı hökumətinə tabe olduğu göstərilir. Həmin əmirliyin xristianlardan alınan cizyə vergisi Diyarbəkir xəzinəsinə təhvil verilmək şərti ilə əmirliyin əvvəlki varisi Məhəmməd bəyə qaytarıldı. Bidlisi yazır: «I Sultan Səlim tərəfindən qəbul olunmuş bu qərarı Sultan Süleyman Qazi də imzalayaraq təsdiq etdi» (76, 191).

Bununla da, məlum olur ki, ərəb xilafəti dövründən miras qalan cizyə vergisi XV-XVI əsrlərdə həm Bidlis əmirliyində, həm də qeyri-müsəlmanlar yaşayan digər kürd əmirliklərində tətbiq olunmuşdur.

Dini və ənənəvi vergi. «Şərəfnamə»də qeyd edilən dini və ənənəvi vergi formasına nə Həsən bəyin qanunnaməsində, nə də digər mənbələrdə təsadüf olunmadı. Çünki Bidlisi öz əsərində həmin vergini ümumi şəkildə göstərərək yazır: «Bidlis əhalisi müsəlmanlarla xristianlar arasındakı sərhəddi qoruduqları üçün qüvvətli şahlar o vilayətin dini və ənənəvi vergilərdən azad etmişdir» (76, 347). Bizə görə dini və ənənəvi vergi müsəlmanlardan alınan müxtəlif vergi və mükəlləfiyyətlərin məcmusudur. Bunlardan rəsm ərusi, rəsm nigah, rəsm eydi, rəsm novruzu və sairəni göstərmək olar ki, XV-XVI əsrlərdə Həsən bəyin qanunnaməsi əsasında kənd və şəhər zəhmətkeşlərindən alınırdı.

Y a y l a q v e r g i s i. Qabaqcadan yaylaq təyin edilən sahələrə uzaq yerlərdən gələn qoyunçuluqla məşğul olan tayfalardan 300 qoyundan bir qoyun hesabı ilə yaylaq vergisi alınırdı (76, 307). Həmin sahədə daimi surətdə yaşayanlar yaylaq vergisindən azad edilirdilər. Bidlisinin yazdığına görə XVI əsrin ortalarında Osmanlı hökumətinin təhriki ilə Azərbaycan ərazisinə basqın edən Mahmudi kürd tayfası da Sultan Süleyman Qazinin əmri ilə yaylaq və qışlaq vergisindən azad edilmişdi (76, 307). «Şərəfnamə»dəki məlumata əsasən həmin vergi Bidlis əmirliyində uzun zaman tətbiq edilmişdir.

Qışlaq vergisi. XV-XVI əsrlərdə Bidlis əmirliyində Uzun Həsənin qanunnaməsində qeyd olunan qışlaq vergisinə də təsadüf olunur. Bu vergi ayrı-ayrı məhəllələrdən qışlaqlara gətirilən hər 10 baş qoyundan bir qoyun hesabı ilə alınırdı.

Beləliklə, XV-XVI əsrlərdə «Şərəfnamə»də adları qeyd olunan bu vergilərdən əlavə, Uzun Həsənin qanunnaməsində göstərilən digər vergilərin də Bidlis əmirliyində həyata keçdiyini güman etmək olar.

XVI əsrin ortalarında Kürdüstanla qonşu olan Azərbaycan və İran ərazisindəki kürd əmirliklərində Elxanilərdən miras qalan tamğa vergisi ləğv edildi (78, 226). I Şah Təhmasib tərəfindən 30 min tümənlik vergi rəiyyətə bağışlandı. Lakin həmin əsrdə Osmanlı hökumətindən asılı olan kürd əmirliklərində vəziyyət son dərəcə ağır idi. Oradakı kürd əmirliklərində nəinki orta əsrlərin dözülməz vergi mükəlləfiyyətləri ləğv edilməmişdi, hətta ona bir sıra yeni mükəlləfiyyətlər də əlavə olunmuşdu. Türk müəlliflərinin yazdıqlarına görə XVI əsrin sonunda Osmanlı hökuməti rəiyyətdən adam başına 40-60- axça xanə əvarisi (ev vergisi) hər iki qoyundan bir axça, rəsmi ğənəm (qoyun vergisi) alırdı (53, 448). Bununla da aydın olur ki, əvvəllərdə qeyri-müsəlmanlardan alınan həmin vergi (cizyə) sonralar kürd əmirliklərində yaşayan əhalinin hamısından alınmışdır.

1516-cı ildə kürd əmirləri ilə Osmanlı hökuməti arasında bağlanan müqaviləyə görə kürd xalqı osmanlıların xeyrinə olaraq, hərbi mükəlləfiyyət də daşımalı oldular. Bundan başqa, hər bir əmirlik Diyarbəkir xəzinəsinə külli miqdarda vergi verməli idi. Bidlisi göstərir ki, «dörd min nəfər xristiandan alınan xərc və cizyə vergisi ilə vəqf mülklərinin vergisi istisna olmaqla, Muş nahiyəsinin vergisi 1. 533.324 Osmanlı axçasına bərabər idi» (76, 354-355). O, Xnos rayonunun vergisini də Muş vergisi qədər qeyd etmişdi (76, 355).

Katib Çələbi qeyd edir ki, Osmanlı sülaləsi dövründə dövlətin vergi dəftərinə əsasən Muş əmirliyinin vergisi 15 min dinardır (103, 415).

İstər Bidlisi, istərsə də Katib Çələbi Çingiz xan dövrü üçün Muş nahiyəsinin vergisi haqqında Həmdulla Mustovfinin göstərdiyi vergi miqdarını XVI əsrdəki vergi miqdarı ilə müqayisəli şəkildə qeyd etmişdilər. Lakin Bidlisi düzgün, Katib Çələbi isə Həmdulla Mustofinin göstərdiyi vergi miqdarını təhrif etmişdi (63, 126; 76, 354).

«Şərəfnamə»dəki məlumata görə XVI əsrin axırlarında Heqari əmirliyi 100 min florin vergi müqabilində Osmanlı hökuməti tərəfindən əsil varisi Zəkəriyə bəyə yenidən qaytarılmışdı (76, 104). Beləliklə, XVI əsrin əvvəlindən Osmanlı hökumətindən asılı vəziyyətə düşən kürd əmirlikləri üzərindəki vergi və hərbi mükəlləfiyyətlər kürd xalqının maddi həyat şəraitini çətinləşdirirdi, ölkənin iqtisadiyyatını bərbad hala salırdı. Bu çətin vəziyyətdən istifadə edən türklər XVII əsrdə Kürdüstanı vilayət deyə qeyd edirdilər. Lakin sonralar kürd və Kürdüstan sözünü tamamilə ləğv edərək, kürdləri dağ türkləri adlandırmağa başladılar (23, 74).

Sənət və ticarət. XV-XVI əsrlərin mənbələrində Bidlis əmirliyi Kürdüstanda sənət və ticarət mərkəzi kimi qeyd edilmişdir (41, 44). «Şərəfnamə»dəki məlumata görə Bidlis vilayətində Azərbaycan, İran və Ermənistan tacirlərindən başqa, rus, bolqar, Çin və hind tacirlərinə də təsadüf edilirdi (76, 339). Bu əsrlərdə Bidlis əmirliyində müxtəlif emalatxanalar, sənətkarlıq və başqa peşələrə aid çoxlu dükanlar mövcud idi. Bidlisi öz əsərində həmin emalatxana və dükanların ümumi sayını 800-ə qədər göstərmişdir (76, 348). Bunlardan əlavə, XVI əsrin axırlarında Bidlis əmirliyində 100-ə qədər ikiüzlü dükan, iki gön emalatxanası və bir çox digər ictimai binalar tikilmişdir. Bu qeyd olunan emalatxana və dükanlardan başqa, evlərdə kustarçılıqla məşğul olan bir çox xırda istehsalçılar da var idi ki, onların əksəriyyətini qadınlar təşkil edirdi. O, qadınlar sırasında əyirici, toxuyucu, yaxşı naxışvuran xalça ustalarına təsadüf etmək olardı. Ona görə də XV-XVI əsrlərdə Bidlis sənətkarlığında əsas yeri xalçaçılıq və gönçülük tuturdu. Eyni zamanda yun parça, gön ayaqqabı hazırlayan sənətkarların da sayı az deyildi. Bidlis əmirliyində müxtəlif silah qayıran ustalar var idi ki, bunlar əsasən nizə, qalxan və xüsusilə qala divarlarına qalxmaq üçün lazım olan nərdivanlar hazırlayırdılar. XV əsrdəki nərdivan ustalarından Əbubəkr ağa Bayəkinin (Bayəki tayfa adıdır) adı «Şərəfnamə»də xüsusilə qeyd edilmişdir (76, 398).

XV-XVI əsrlərin Bidlis sənətkarlığında metaldan hazırlanan şeylər də az deyildi. Həmin əmirlikdə əlvan metaldan düzəlmiş bəzək şeyləri, gümüş kəmər, toqqa və sairəyə təsadüf olunurdu. Buradan da belə bir nəticə çıxarmaq olar ki, XV-XVI əsrlərdə Bidlis sənətkarlığında əlvan və qara metaldan, az da olsa, istifadə olunmuşdur.




Bidlis sənətkarları içərisində şahmat, papiros qutusu, zərif sandıqçalar və mücrü qayıran yaxşı ustalar da var idi. Əmirlikdə saxsı qab-qacaq da istehsal olunurdu.

Bidlis əmirliyində yunçuluq və ipəkçiliyin inkişafı müxtəlif sənət sahələrinin yüksəlişinə təsir edirdi. Beləliklə də, XV-XVI əsrlərdə Bidlis sənətkarları tərəfindən hazırlanan müxtəlif əmtəələr və istehsal olunan mallar əhalinin tələbatını əsasən təmin edirdi. Odur ki, V.Nikitin haqlı olaraq, Bidlis şəhərini sənət şəhəri deyə qeyd etmişdir (23, 113).

Ticarət. XV-XVI əsrlərdə Bidlis əmirliyində xarici bazar üçün hazırlanan sənət şeyləri və xammal da az deyildi. Onlar xarici tacirlərə gön, dəri, xalça, ipək, yun, palıd, yağ, pendir və sairə satır və onlardan silah, zərif parçalar və zinət şeyləri alırdılar. Başqa kürd əmirliklərində olduğu kimi, Bidlis əmirliyində də əsas bazar adətən hər ilin payız fəslində təşkil olunurdu. Çünki bu fəsil müxtəlif köçəri kürd tayfalarının yaylaqdan qayıdan vaxtları idi. Həmin fəsildə xarici tacirlər öz əmtəələrini Bidlis bazarına gətirir və yerli əhalidən lazım olan malları alırdılar. Alver əsasən mübadilə şəklində aparılırdı. Bu da gəlmə tacirlər üçün çox əlverişli olurdu. Çünki onlar öz əmtəələrini yerli əhaliyə baha satır və onlardan xam malları ucuz qiymətə alırdılar. Lakin «Şərəfnamə»də İtaliya, İraq, İran və Osmanlı pullarının adına tez-tez təsadüf olunur. Beləliklə, Bidlis əmirliyinin xarici ölkələrlə ticarət əlaqəsini və ticarətdə yalnız mübadilə deyil, əsas amil olan xarici pulların da, rol oynadığını görmək olarda. XV-XVI əsrlərdə nə Bidlis və nə də digər kürd əmirliklərində vahid pul sistemi olmamışdır. Bunun da səbəbi vahid və mərkəzləşmiş Kürdüstan dövlətinin olmaması və alverin əsasən mübadilə şəklində aparılması idi. Buna görə də Bidlis bazarında əsasən İran, İraq və Osmanlı pulları rol oynayırdı.

XV – XVI əsrlərdə Bidlis tacirləri də öz əmtəə və xammallarını xarici bazarlara ixrac edirdilər. Onlar əsasən Azərbaycan, İran, Türkiyə, Suriya, Misir və İraq ölkələri ilə daha çox ticarət edirdilər. XV əsrin ortalarında ticarət məqsədilə Təbriz şəhərinə gedən Bidlis taciri haqqında «Münşəati Səlatin»də maraqlı bir məktub qeyd edilmişdir. Məktub Bidlis əmiri Məhəmməd bəy tərəfindən Osmanlı Sultanı Məhəmməd Qaziyə yazılmışdır. Məktubda deyilir: «Ölkəmizin əmin şəxslərindən biri mərhum Seyid Bəhayəddin ticarət məqsədilə o ölkəyə (Təbrizə -Ş.M.) göndərilmişdir. Həmin şəxs Təbrizə çatan kimi vəfat etmişdir. Təbrizin dövlət məmurları vəziyyəti yoxlamadan onu bivaris hesab edərək, 8 xalvar56 xalis ipəyini zəbt etmişdilər. Xahiş edirik, onun hissəsinin verilməsi haqqında sərəncam buyurasınız» (98, 319). (Həmin dövrdə Sultan Məhəmməd Qazi Konstantinopol qalasını fəth etdiyi üçün müsəlman aləmində böyük hörmətə malik idi. Bunu nəzərə alaraq, Məhəmməd bəy ona müraciət etimşdi – Ş.M.).

Ümumiyyətlə, XVI əsrin əvvəllərində Bidlis əmirliyinin ixracatı onun varidatına uyğun gəlirdi. Lakin Kürdüstanın ilk dəfə bölünməsindən sonra bu tənasüb pozuldu. Digər kürd əmirliklərində olduğu kimi, Bidlis əmirliyinin də sənət, ticarət və başqa gəlir sahələri Osmanlı hökumətinin mənafeyinə tabe edildi. Əmirliyin daxili və xarici ticarətində daha kürd tacirləri deyil, Osmanlı tacirləri əsas rol oynayırdılar.

**Ardı var**

## Türkiyənin xahişini rədd edən ABŞ, İsrail üçün yeni təhlükəsizlik paketi hazırlayır



Türkiyənin ən yüksək rəsmilərinin "Reaper" tipli pilotsuz təyyarələrlə bağlı istəyini "Konqresin etirazı" bəhanəsi ilə rədd edən ABŞ, İsrail üçün yeni təhlükəsizlik paketi hazırlayır. SalamNews-un "Habertürk"ə istinadla verdiyi xəbərə görə, ABŞ rəhbərliyi bu paketi paketini Konqresdən keçirməyə hazırlaşır. Sənədin bir müddət öncə "ABŞ-İsrail gücləndirilmiş təhlükəsizlik əməkdaşlığı aktı" qəbul edilən Nümayəndələr Palatasında yekdilliklə qəbul olunacağı gözlənilir.

Layihə ilə bağlı danışan ABŞ Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin üzvü Hovard Berman deyib: "İsrailin təhlükəsizliyi və yəhudi vətəninin qorunması bir siyasi partiyanın məsələsi deyil. Amerika bunu etməlidir".

## SURİYA MÜXALİFLƏRİNİN RƏHBƏRİ İSTEFA VERDİ

*Bu qərar müxaliflərin Milli Şurasının toplantısından sonra verilib*



FaktXeber.com-un "əl-Qudsul-ərəbi" qəzetinə istinadən verdiyi məlumata görə, Suriya müxalifləri İstanbulda Milli Şuranın son toplantısı zamanı, Şuranın rəhbəri Borhan Ğələyunun istefasını tələb ediblər. Şura bununla bağlı bəyanat yayıblar. Onlar, Ğələyunun fəaliyyətini yarıtmaz olduğunu və elə buna görə də istefa etməsini istəyiblər. Bundan sonra Şura rəhbəri istefaya məcbur olub. Qeyd edək ki, Suriya müxalifləri arasında fikir ayrılığı getdikcə böyüyür. Artıq Şurada parçalanmalar müşahidə olunmaqdadır. Son bir neçə ay ərzində minlərlə müxalif döyüşçünün özünü hökumət qüvvələrinə təslim etməsi yaranmış fikir ayrılığının bariz nümunəsidir.

## Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına sədrlik Azərbaycana keçdi

*İrəvanda təşkilatın Parlament Assambleyasının 39-cu plenar iclası keçirilib*




İrəvanda azərbaycanlı millət vəkillərinin də qatıldığı Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının 39-cu plenar iclası keçirilib. Bu iclasda Azərbaycan Parlamentinin üzvü Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının vitse-prezidenti Asəf Hacıyevin başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti də iştirak edir. İrəvan iclasından sonra təşkilatın Parlament Assambleyasına sədrliyə gələn 6 ay müddətinə Azərbaycana ötürüləcək. Növbəti Plenar İclas Bakıda noyabrın 20-22-də kecirіləcək. Nümayəndə Heyətinin rəhbəri Asəf Hacıyev BBS-yə müsahibəsində bildirib ki, iclasda daha çox təşkilata üzv ölkələr arasında iqtisadi əməkdaşlıq məsələləri müzakirə olunsa da Azərbaycan tərəfi bəyan edib ki, Dağlıq Qarabağ münaqişəsi həll olunmayana qədər İrəvanla heç bir əməkdaşlıqdan söhbət gedə bilməz.

## İrana qarşı tətbiq olunan sanksiya ləğv edilib

Avropa məhkəməsi AB-nin İrana qarşı tətbiq etdiyi sanksiyanı ləğv edib. İran Prezidenti yanında Beynəlxalq Hüquqi İşlər Mərkəzinin rəhbəri Məcid Cəfərzadə bu barədə bəyanatla çıxış edib.O deyib: «Avropa Məhkəməsi İranın neft şirkətlərinə sanksiya tətbiq olunması barədə AB-nin qərarını ləğv edərək, Avropa Komissiyasının iddiaçı tərəfin xərclərini ödəməsi barədə hökm çıxarıb». Xatırladaq ki, AB-yə üzv ölkələrin XİN rəhbərləri cari ilin yanvarın 23-də Brüsseldə keçirilən toplantısında İrandan neft idxalına iyulun 1-dən etibarən sanksiya tətbiq olunması barədə qərar çıxarmışdı.

*rst.az*

# Ağrı vilayətinin Daşlıçay qəzası

Türkiyə Cümhuriyyəti Ağrı vilayətinin ilçələrindən biri . TarixDaşlıçay rayonu həmçinin Daşlıçay şəhər bələdiyyəsi 6324-6325 saylı qanun əsasında 1954-cü ildə yaradılmışdır.

Ərazi Ərazisindən Murad çayı keçən rayon şərqdən Ağrı vilayətinin Diyadin və Doğubəyazid rayonları, şimaldan İğdır vilayətinin Duzluca rayonu, qərbdən Ağrı vilayətinin Mərkəz (Ağrı) və Hamur rayonları, cənubdan isə Van vilayətinin Ərciş rayonu ilə həmsərhəddir. Rayonun sahəsi 798[1][2] km²-dir. Rayonun ən hündür nöqtəsi Aladağın zirvəsi olan Muradbaşı (və ya Qoçbaşı) zirvəsidir (hündürlüyü 3510 metr). Rayon mərkəzi olan Daşlıçay şəhəri vilayətin mərkəzi olan Ağrı şəhərindən 32 km məsafədə yerləşir.

İqtisadiyyatRayonda əhali əsasən maldarlıq, qismən isə əkinçiliklə məşğul olur. Ərazisinin çox hissəsi dağlıq olan rayonda əkinə yararlı sahələr azdır. Əhali TUİK-in 2011-ci ilə verdiyi rəsmi təxminə əsasən Daşlıçay əhalisi 22,641[3] nəfərdir (11,543[3] nəfər kişi, 11,098[3] nəfər qadın). Bütün rayon əhalisinin 6,191[3] nəfəri (3,132 nəfəri kişi, 3,059 nəfəri qadın) Daşlıçay şəhərində, qalan 16,450 nəfər (8,411 nəfər kişi, 8,039 nəfər qadın) əhali isə 36 kənddə yaşamaqdadır. Daşlıçay rayonunda yalnız bir bələdiyyə mövcuddur: Daşlıçay şəhər bələdiyyəsi (Daşlıçay şəhərini əhatə edir). Milli tərkibEtiqad baxımından tamamiyə müsəlman olan rayon əhalisini əsasən kürdlər, qismən türklər (azərbaycanlılar) təşkil etməkdədir. Kürdlər şafi məzhəbindədirlər. Rayondakı azərbaycanlılar şiə-cəfəri və sünni-hənəfi təriqətləri olmaqla iki yerə ayrılır. Rayonda əsasən kəndlərdə yaşayan Azərbaycan türklərinin subetnik qrupu olan Qarapapaqlara aid türklər Hənəfi məzhəbindədirlər. Şiə-Cəfəri azərbaycanlıların əksəriyyəti isə Daşlıçay şəhərində yaşamaqdadır.

Daşlıçay şəhərinin əhalisinin (6,191 nəfər) 60%-ni kürdlər, 40%-ni azərbaycanlılar təşkil edir. Şəhərdəki azərbaycanlıların əksəriyyəti şiə olsa da, az bir qismi (Qarapapaq tayfasından 20-25 ailə) sünni-hənəfi təriqətindədirlər.

Cəfəri məzhəbində olan Azərbaycan türkləri Daşlıçay şəhərində (əhalinin 40%-i), Yuxarıdaşlıçay (əhalinin tamamı), Yassıqaya (əhalinin tamamı) və Bayramyazı (3-5 ailə) kəndlərində, Azərbaycan türklərinin subetnik qrupu olan Qarapapaqlar isə Daşlıçay şəhərində (20-25 ailə), İkiyamac (əhalinin tamamı), Keçidverən (əhalinin 95%-i), Yuxarıtoxlu (əhalinin tamamı), Aşağıtoxlu (əhalinin yarısı), Qumlubucaq (əhalinin yarısı) və Çöğürlü (3-5 ailə) kəndlərində yaşamaqdadırlar. Rayon ərazisində yaşayan kürd əsilli əhali tayfa quruluşunu qoruyub saxlamışdır : Cəlali tayfası: Araz, Aşağıəsən, Yuxarıəsən, Bayramyazı, Boyuncaq, Çöğürlü, Qumlubucaq, Daştəkər və Tanyolu kəndlərində məskunlaşıbdır. Plakani tayfası: Aşağıdüzmeydan, Yuxarıdüzmeydan, Aşağıdumanlı, Yuxarıdumanlı, Çökelgə, Gündoğdu, Tanrıverdi, Güneysöyüd, Samanyolu, Yanqaya, Yeltəpə, Yanalyol və Balçiçək kəndlərində məskunlaşmışdır. Nezoi tayfası: Yardımçılar, Düzgörən və Tanrıverdi kəndlərində məskunlaşmışdır. Kaskan tayfası: Diləkyazı və Qumluca kəndlərində məskunlaşmışdır. Şeyx tayfası: Gözucu, Kağnılı və Bayıraltı kəndlərində məskunlaşmışdır. Mikali tayfası: Gözucu və Bayıraltı kəndlərində məskunlaşmışdır.

**Daşlıçay rayonunun kəndləri və etnik tərkibi**

| No: | Kəndlərin adı[3] | 2011[3] r.t., əhali | Milli çoxluq | Milli azlıq |
|---|---|---|---|---|
| 1. | Alaqoçlu | 846 | 100% kürd | ... |
| 2. | Araz | 203 | 100% kürd | ... |
| 3. | Aşağıdumanlı | 1,229 | 100% kürd | ... |
| 3. | Aşağıdüzmeydan | 482 | 100% kürd | ... |
| 4. | Aşağıəsən | 451 | 100% kürd | ... |
| 5. | Aşağıtoxlu | 434 | 50%[2] azərbaycanlı | 50%[2] kürd |
| 6. | Balçiçək | 154 | 100% kürd | ... |
| 7. | Bayıraltı | 536 | 100% kürd | ... |
| 8. | Bayramyazı | 540 | kürd | 3-5 ailə[4] azərbaycanlı |
| 9. | Boyuncaq | 79 | 100% kürd | ... |
| 10. | Çöğürlü | 747 | kürd | 3-5 ailə[4] azərbaycanlı |
| 11. | Çökelgə | 472 | 100% kürd | ... |
| 12. | Diləkyazı | 256 | 100% kürd | ... |
| 13. | Düzgörən | 654 | 100% kürd | ... |
| 14. | Keçidverən | 602 | 95%[4] azərbaycanlı | 5% kürd |
| 15. | Gözucu | 598 | 100% kürd | ... |
| 16. | Gündoğdu | 104 | 100% kürd | ... |
| 17. | Güneysöyüd | 172 | 100% kürd | ... |
| 18. | İkiyamac | 294 | 100%[4] azərbaycanlı | ... |
| 19. | Kağnılı | 177 | 100% kürd | ... |
| 20. | Qaragöz | 154 | 100% kürd | ... |
| 21. | Qumlubucaq | 421 | 50%[4] azərbaycanlı | 50%[4] kürd |
| 22. | Qumluca | 1,619 | 100% kürd | ... |
| 23. | Samanyolu | 105 | 100% kürd | ... |
| 24. | Tanrıverdi | 199 | 100% kürd | ... |
| 25. | Tanyolu | 725 | 100% kürd | ... |
| 26. | Daştəkər | 356 | 100% kürd | ... |
| 27. | Yanalyol | 202 | 100% kürd | ... |
| 28. | Yanqaya | 21 | 100% kürd | ... |
| 29. | Yardımçılar | 804 | 100% kürd | ... |
| 30. | Yassıqaya | 197 | 100%[2] azərbaycanlı | ... |
| 31. | Yeltəpə | 577 | 100% kürd | ... |
| 32. | Yuxarıdumanlı | 312 | 100% kürd | ... |
| 33. | Yuxarıdüzmeydan | 865 | 100% kürd | ... |
| 34. | Yuxarıəsən | 479 | 100% kürd | ... |
| 35. | Yuxarıdaşlıçay | 200 | 100%[2] azərbaycanlı | ... |
| 36. | Yuxarıtoxlu | 184 | 100%[4] azərbaycanlı | ... |

## Rusiyanın İraqdakı səfirliyi baykerlərin azad edilməsini xahiş edib

Deyerler.Org: Rusiyaın İraq səfirliyi İraqın XİN idarəsində saxlanılan rusiyalı baykerlərin azad edilməsi haqda xahiş məktubu ünvanlayıb. Bu haqda Rusiya XİN idarəsinin rəsmi nümayəndəsi Aleksandr Lukaşeviç bildirib.

"Rusiyanın İraqdakı səfirliyi lazımı bütün tədbirləri həyata keçirir və İraq XİN idarəsinə baykerlərin təcili olaraq azad edilməsi xahişi ilə bağlı nota göndərib", - deyə Lukaşeviç bildirib. Onun sözlərinə görə, Rusiya səfiri may ayının 22-də İraq prezidenti Cəlal Tələbani ilə görüşündə yaranmış vəziyyətin tezliklə həll edilməsi xahişi ilə müraciət edib. Lukaşeviç həmçinin bildirib ki, rusiyalı motosikletçilər İraq ərazilərinə lazımi sənədləri olmadan Türkiyə ərazisindən keçiblər. Lukaşeviç rusiyalıları xüsusi razılaşmalar olmadan İraq ərazilərinə getməməyə çağırıb.



# İspaniyadan ermənilərə zərbə

*İspan deputatlar qondarma "erməni soyqırımı" iddiasını rədd etdi*



İspaniyalı deputatlar qondarma "erməni soyqırımı" məsələsini rədd ediblər. Lent.az-ın Türkiyənin "Haber365.com" saytına istinadən verdiyi məlumata görə, İspaniya parlamentinin Xarici İşlər Komitəsində 1915-ci il hadisələri ilə bağlı layihənin müzakirəsi aparılıb və iddia qəbul edilməyib. Layihəyə Birləşmiş Sol (İU) və Bask əyalətində yerləşən Bask Millətçi Partiyası (PNV) dəstək verib. Hakim Xalq Partiyası (PP) ilə ana müxalifət hesab olunan Sosialist İşçi Partiyası (PSOE) başda olmaqla, digər siyasi partiyalar layihəyə qarşı çıxıb. Komitədə aparılan müzakirələr zamanı çıxış edən iqtidar partiyasının nümayəndəsi Jose Maria Beneyto tarixi məsələlərə qarşı olduqlarını və bunu yerinə Türkiyə ilə Ermənistan arasındakı yaxınlaşmaya kömək etmək istədiklərini qeyd edib.

## Suriya-Türkiyə sərhədində toqquşma baş verib



Çərşənbə gününə keçən gecə Suriya-Türkiyə sərhədində Suriyanın təhlükəsizlik qüvvələri ilə silahlı müxalifət arasında toqquşma baş verib. Trend-in məlumatına görə, bu barədə "Əl-Cəzirə" telekanalı xəbər verib. Bir neçə müxalifət üzvü yaralanıb. "Əl-Cəzirə"nin məlumatına görə, gecə saatlarında Suriya ordusunun şəhərləri atəşə tutması nəticəsində 25 nəfər ölüb. Suriyadan olan çoxlu sayda qaçqın və müxalifət üzvləri Türkiyədə sığınacaq tapıb. Sayı 30 mindən çox olan qaçqınlar üçün çadır şəhərcikləri salınıb.



## Millət vəkili həbs olundu

Diyarbəkir məhkəməsi Türkiyə parlamentinin müstəqil millət vəkili Leyla Zanaya 10 il həbs cəzası verib. "Qafqazinfo"nun "Milliyet" qəzetinə istinadən xəbərinə görə, Leyla Zana müxtəlif vaxtlarda elədiyi 9 çıxışına görə ittiham olunub. Leyla Zana 2011-c ildə BDP-nin dəstəyi ilə millət vəkili seçilib. Türkiyədə bölücülük təbliğatı yayan çıxışları ilə tanınan millət vəkili 2008-ci ildə də həbs cəzası alıb, lakin o zaman bu qərar icra olunmamışdı.

## "Suriyadakı terror digər qonşu dövlətlərə də təsir göstərəcək"

Suriya Prezidenti Bəşər Əsəd Rusiyanın "Rossiya 24" televiziyasına verdiyi müsahibədə bildirib ki, ölkədə artan terror hadisələri Türkiyə və digər qonşu dövlətlərə də təsir göstərəcək.

SalamNews-un Türkiyə mətbuatına istinadla verdiyi xəbərə görə, Türkiyənin müxalif qruplara silah ötürməsinə dair əllərində dəlil olmadığını qeyd edən Əsəd, Ankara rəhbərliyinin Suriya ilə əlaqədar fantaziya qurduğunu, Türkiyədə bəzi strukturların Suriya müxalifətinə siyasi dəstək verdiyini bildirib. Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın Suriya ərazisində bufer zona yaradılması və Suriya rəhbərliyinin dəyişməsi zəruriliyi barəsində çağırışlarını xatırladan müxbir, "bunun Türkiyəyə nə kimi xeyri ola bilər" sualını verib. Əsəd bu sualı belə cavablandırıb: "Onların heç bir mənfəəti yoxdur. Sıx təmas halında olduğumuz digər nüfuzlu türk siyasətçilərindən əldə etdiyimiz məlumatları əsas tutaraq deyə bilərəm ki, Türkiyənin belə bir niyyəti yoxdur. Bəzi türk siyasi səlahiyyətlilər fantaziya qurur, özlərini ağıllı hesab edirlər. Görüşdüyümüz türk rəsmilərinin çoxu Suriyadakı vəziyyəti çox yaxşı bilir, müsbət və mənfi cəhətlərindən xəbərdardılar. Onlar Suriyadakı hər hansı bir inkişafın dolayı və ya birbaşa Türkiyəyə də təsir edəcəyini başa düşürlər".

## "Türkiyəyə neft satmayın"

İraqın Baş naziri kürd administrasiyasına xəbərdarlıq edib İraqın Baş naziri Nuri əl-Maliki Şimali İraq Kürd Administrasiyasının (ŞİKA) lideri Məsud Bərzanidən Türkiyəyə neft satmamağı tələb edib. Baş nazir ŞİKA rəhbərliyinin rəsmi Bağdadın icazəsi olmadan Türkiyə ilə aparılan neft ixracına dair danışıqlar aparılmasını yolverilməz addım adlandırıb. Türkiyənin "Tərəf" qəzetinin xəbərinə görə, İraqın kürd administrasiyasının rəsmi Ankara ilə Bağdaddan keçmədən Türkiyə vasitəsilə beynəlxalq bazara neft ixracına dair razılığa gəlməsi Maliki hökumətini qəzəbləndirib. Qəzetin xəbərində Malikinin müşavirlərindən Əli əl-Musəvinin İraq mərkəzi hökuməti ilə ŞİKA arasında neft razılaşmasının konstitusiyaya uyğun olmasının vacibliyini vurğuladığı bildirilib. Qeyd edək ki, rəsmi Bağdad ölkənin kürd administrasiyasının birtərəfli müqavilələr imzalamaq səlahiyyətinə malik olmadığı və neft ixracının dövlətə aid neft kəmərləri vasitəsilə aparılmasının vacibliyini bəyan edir.

***"Azerimuslims"***

# Xarici qüvvələr PKK-dan Türkiyəyə təzyiq göstərmək üçün istifadə edirlər

Kürd Fəhlə Partiyası (PKK) hələ də, Türkiyənin xarici siyasətinə müəyyən təsir göstərir, bu isə, müəyyən xarici qüvvələrin indiyədək bu partiyadan Türkiyəyə təzyiq göstərmək üçün istifadə etdikləri almanına gəlir. Bu barədə Beril Dedeoğlunun "Today's Zaman" qəzetində nəşr olunmuş "Terrorçuluq və yeni regional quruluş" adlı məqaləsində bildirilir.

"Terrorçuluq Türkiyədə yeni formalar alır. Bu dəyişiklik İraqın şimalı ilə bağlı münasibətlərin bərpa olunması ilə əlaqədardır. Məlum olduğu kimi, kürd lideri Məsud Bərzani PKK-nın İraqın şimalından kənarda fəaliyyət göstərməyəcəyinə dair Türkiyəyə vəd verib", - məqalədə deyilir. Müəllifin sözlərinə görə, Türkiyə ilə Bərzaninin yaxınlaşması İranın regional hədəflərinin artması ilə əlaqəlidir. Jurnalist İraqın baş naziri Nuri əl-Maliki və Suriyanın BƏƏS partiyasının İranı dəstəklədiklərini, bununla da, Şimali İraqı rəsmi Tehranla əməkdaşlığa məcbur etməyə çalışdıqlarını vurğulayır.

SalamNews-un verdiyi xəbərə görə, məqalədə İraq parçalanacağı təqdirdə Şimali İraqın ilk olaraq, müstəqilliyini elan edəcəyi və İranla deyil, məhz Türkiyə ilə əməkdaşlıq edəcəyi bildirilir.

"PKK həm İranı, həm də Bərzanini narahat edir. Bərzani partiyanın Türkiyə ilə münasibətləri pozan bir amil olmasını istəmir. Rəsmi Tehran isə, Türkiyənin PKK-ya qarşı mübarizəni əsas gətirərək, İraqın şimalının siyasətinə müdaxilə etməsini istəmir", - məqalədə qeyd olunub.

Türk jurnalist, Kürd Fəhlə Partiyasının (PKK) hələ də, Türkiyənin xarici siyasətinə müəyyən təsir göstərdiyini, bunun isə, müəyyən xarici qüvvələrin indiyədək partiyadan Türkiyəyə təzyiq göstərmək üçün istifadə etdikləri almanına gəldiyini yazır. "Son hücumlar, PKK-nın zamanı geri qaytarmağa çalışması kimi görünür. Hücumlar polisə deyil, hərbçilərə qarşı törədilir və bu hücumların çoxu Suriya ilə həmsərhəd vilayətlərdə qeydə alınıb. Rəsmi mənbələr isə, PKK-nın Suriyadan gəldiyini iddia edir", - Beril Dedeoğlu yazıb.

Onun sözlərinə görə, bu məlumat Suriyanın Türkiyəni təhdid etməsi təsəvvürünü yaradır. "Başqa sözlə, rəsmi Dəməşq Türkiyənin Suriya müxalifətinə dəstək vermısindən hiddətlənib və PKK-nın əli ilə rəsmi Ankaranı cəzalandırmaq istəyir. Lakin bunu yeganə düzgün variant hesab etmək düzgün deyil. Bundan başqa, PKK-nin hücumları güclənəcəyi təqdirdə, Türkiyə Suriyaya müdaxilə edə bilər. Suriya isə, bunun qarşısını almaq istəyir, belə ki, Türkiyənin müdaxiləsi bu ölkə üçün son ola bilər. Bu baxımdan rəsmi Dəməşqin PKK-ya dəstək verməsi məntiqsiz olar", - o vurğulayıb.

Məqalədə həmçinin, PKK-nin Türkiyənin Suriyaya müdaxilə etməsində və burada "bataqlığa" düşməsində maraqlı olduğu vurğulanır. "Türkiyənin Suriyaya müdaxiləsinin daha bir fəsadı isə, bunun Suriya xalqı ilə rəsmi Ankara arasında münasibətlərin pisləşməsinə gətirib çıxaracağından, nəticədə, BƏƏS partiyasını əvəz edəcək istənilən partiyanın Türkiyə ilə münasibətlərinin çətin olacağından ibarətdir. Türkiyəni Suriya xalqı ilə üz-üzə qoymaq istəyən tərəf kimi İsrail göstərilsə də, bu tələsik nəticə olar. İsrail islamçıların hakimiyyətə gəlməməsi üçün Əsədin hakimiyyət müddətinin uzanmasında, digər variant kimi isə, Türkiyənin bu ölkə üzərində nüfuzunun saxlanmasında maraqlıdır", - jurnalist yazıb.



Türkiyəyə qarşı terror hücumlarında İranın əlinin olması məsələsinə toxunan Beril Dedeoğlu, bu iki ölkənin aralarında balans saxlamaq niyyətində olduqlarını vurğulayıb. "Ola bilər ki, Avropadakı bəzi qüvvələr PKK təşkilatı və Suriya məsələsi ilə Türkiyə ilə İranı üz-üzə qoymağa çalışır. İran-Türkiyə münaqişəsinin ABŞ və Rusiyanın maraqlarını zərbə altına qoya biləcəyini nəzərə alsaq, həmin Avropa qüvvələrini müəyyən etmək mümkün olar", - məqalədə yazılıb.

Əvvəli ötən sayımızda

Amma təəssüflər olsun ki, mən sizin Qalaya tamaşa edə bilmədim. Yazıq xan safürəkliliyindən rus sərdarının bu hiyləsini anlamayıb buyurdu ki, nə eybi var, Gəncəyə bir neçə gün gec gedərsiniz. Buyurun, gedək bir-iki gün bizə qonaq olun. Qalaya tamaşa edin. Sərdar bir az fikirləşdikdən sonra dedi ki, bir gecə-gündüz hüzurunuzda qonaq olmaq asandır.

Bu söhbətdən sonra onlar qoşunla Qalaya tərəf üz qoydular. Xan bağı deyilən yerə çatarkən sərdar qoşuna əmr etdi ki, bu qədər adamın şəhərə girməyinə ehtiyac yoxdur. Bir neçə yüz nəfər mənimlə Qalaya gəlsin, qalan qoşun biz geri qayıdanacan burda gözləsin. Rus sərdarı neçə yüz əsgər götürüb, Qalaya xanın hüzuruna gəldi. Qalaya daxil olan kimi sərdar dönüb rusca öz əsgərlərinə əmr edərək sıraya düzdü. Xan soruşdu ki, nə üçün əsgərləri sıraya düzdünüz. Sərdar buyurdu ki, əsgərləri sizin şərəfinizə sıraya düzdüm. Bundan sonra sərdar rusca əsgərlərə nə dedisə, onlar tələsik yüyürüb bürc kömək əlinizi uzadasınız. Bundan sonra cənabınıza tabe oluram. Xan həmin ərizəni bir Qur'ani-Şərifin arasına qoyub, onu da möhürləyib, şaha göndərdi. Bunun da mənası o idi ki, and olsun bu Qur'ani- Şərifə ki, cənabınıza tabe olacağam.

Şahənşah ərizəni alan kimi dərhal 12 minlik qoşun toplayıb, topxanası ilə birlikdə İbrahimxəlil xanın oğlu Əbülfət ağanın sərkərdəliyi ilə xanın köməyinə göndərdi.

Bu tərəfdən rus sərdarını bu əhvalatdan xəbərdar etdilər. Sərdarın əmri ilə həmin saat gecə vaxtı bir neçə yüz əsgər toplanıb, xəbər gətirən adamın sərəncamına verildi.

Qoşun aşağı bürcün altında yerləşən lağımdan keçərək Şuşakəndə gəldi.

Qoşunun başçısı Şuşakənddən bir neçə erməni bələdçisi götürüb dağların ətəkləri ilə gizlincə İbrahimxəlil xanın məskən saldığı yerə tərəf hərəkət etdilər. Qoşun xanın səngərlərinə çatarkən İbrahimxəlil xan çadırında öz dövlət əyanlarının əhatəsində əyləşib, söhbət edə-edə qızıl qəlyan çəkirdi.

Digər tərəfdən İbrahim xan öldürüldükdən sonra onun atlı dəstələri də dağılıb hərəsi bir tərəfə getdi. Hadisə yerindən uzaqlaşan xan atlıları Nabatxan deyilən yerdə Əbülfət ağanın qoşununa rast gəldilər. Əbülfət ağa gördü ki, bir neçə atlı sürətlə hərəkət edirlər. O, nökərlərinə buyurdu ki, o atlıları qaytarıb, onun hüzuruna gətirsinlər. Atlılar İbrahim xanın başına gələn əhvalatı eşitcək hönkür- hönkür ağladıqdan sonra qoşunla ordan geri, İrana qayıtdı ki, şahdan yeni fərman sadir ola.

Xülasə, bu əhvalat ətraflı şəkildə «Tarixi-Qacariyyə»də və «Qarabağ tarixi»ndə şərh edilir. Oxumaq istəyənlər həmin tarix kitablarına müraciət edə bilərlər. Bizim məqsədimiz isə bu illərdə erməni tayfası ilə müsəlmanlar arasında baş vermiş əhvalatları (iğtişaş və qırğınları) bəyan etməkdir.

Elə ki rus dövləti Qafqaz məmləkətinə hakim oldu, hər yerdə sakitlik yarandı. Heç bir millətin bir-biri ilə işi yox idi. Hər kəs öz işi ilə məşğul idi və hər millət öz qanunu ilə məbədlərində ibadət edirdilər. Heç bir millət bir-birinə hücum etmirdi. manların şəbeh gətirməyini təqlid edərək istehza edərlərmiş. Müsəlmanlar hadisədən xəbərdar olan saat dükan-bazarı bağlayıb Xan bağına getdilər və şəhərin hakimi Cəfərqulu xanı Qalaya gətirdilər. Şəhərdə böyük bir qovğa üz verdi. Böyük-kiçik hamı hakim tərəfə üz qoydular. Bu haldan çox qorxuya düşmüş hakim nə qədər istədi ki, müsəlmanları sakitləşdirsin, mümkün olmadı. Axır, bir bəhanə ilə aradan çıxıb evinə getdi. İğtişaş get-gedə şiddətlənirdi. Onun qarşısını almaq üçün Şuşakənddə olan digər şəhər hakimi Ala bəyi gətirdilər. Ala bəy atlı meydana daxil olan kimi xalq onu araya aldı. Mirhadi adlı bir seyid irəli gəlib Ala bəyi çəkib atdan yerə saldı və vurub baş-gözünü yardı. Xalq üz qoydu ermənilərin üstünə. Ermənilər tamam dükandan çıxıb qaçdılar. Kimisi dükanı bağladı, kimisi bir qapısını örtdü, kimisi də buna fürsət tapmayıb ayaqyalın üz qoydular qaçmağa. Bir para uzaqgörən müsəlmanlar qaçan ermənilərin bir parasını evlərinə gətirib, mühafizə edib sakitləşdirdilər. Cahil müsəlmanlar isə



quyunun kənarında oturub qızındıqdan sonra xurcunlarında

* * *

Hicri 1321-ci (miladi 1903) il tarixində müsəlman kəndindən olan Məhəmməd və Salman adlı iki qardaş öz yüzbaşılarına etiraz əlaməti olaraq qaçıb meşənin

# 1905-06-cı illərdə erməni-müsəlman davası



və barı üstünə çıxaraq şeypur çalmağa başladılar. Həmin saat Xan bağı tərəfdən Kəhrab deyilən yerdən də şeypur çalındı. Xanı təəccüb götürdü. Çox keçmədi arxada qalan əsgərlər də gəlib Qalaya daxil oldular.

Sərdar xanın qabağına gəlib dedi ki, biz artıq bu Qalanı zəbt etdik. Əgər sən rus padşahına bu qala və bütün dövlətinlə tabe olursansa, hakimiyyət sənin əlində olacaq. Yox əgər tabe olmaq fikrində deyilsənsə, sənə üç saat möhlət veririk, imarətindən nə ehtiyac duyursan, götürüb istədiyin yerə gedə bilərsən. Xan bu xəyanətdən çox təsirlənib rus sərdarına təhqiramiz sözlər dedi. Rus sərdarı buyurdu ki, artıq danışmaq lazım deyil. Bu şəhəri biz tutmuşuq və sənə üç saat möhlət vermişik. İstədiyini edə bilərsən.

Yazıq xan əlacsız qalıb öz imarətinə gəldi. Bacardığı qədər lazım olan əşyaları, övrət-uşağı götürüb bütün atlı-piyada nökər və qoşunları ilə Qaladan çıxdılar. Qalanın yaxınlığında üstü hamar olan qayalıq yerdə çadırlar qurub məskən saldılar. Çadırlarda və alaçıqlarda yaşayan xanın və onun adamlarının əmin-amanlığını təmin etmək üçün ətrafda səngərlər qazdılar. Dərhal xanın əmrilə münşilər İran şahı Fətəli şaha bir ərizə yazdılar. Ərizədə xan yazırdı ki, rus sərdarı hiylə ilə mənim başıma belə işlər gətirdi. Mən indi bütün adamlarımla çıxıb Qaladan kənar bir dağın üstündə məskən salmışam. Sədaqətlə bu ərizəni hüzurunuza göndərirəm ki, mənə

Bu məclisdə mənim, yəni, bəndeyi-həqir Nəvvab Mir Möhsünün ana babası mərhum Əmiraslan bəy də iştirak edirdi. Birdən xana xəbər verdilər ki, rus qoşunu sənin üstünə gəlir, Xan qalxıb neçə dəfə təkrarən dedi:

— Ey kafir, ey kafir!..

Dərhal əmirli atlılarından birisi bir güllə atıb əsgərin birini öldürdü. Bu zaman rus əsgərləri dərhal birlikdə onların üzərinə atəş açdılar. Güllələrin bir neçəsi İbrahim xana dəydi və kürsüdən yıxıldı. Xanın övrət-uşağı tökülüb onun bədənini qucaqlayıb ağlaşmağa başladılar. Atılan güllələrdən neçəsi onlara, əyanlara və nökərlərə dəydi. Qalanlar isə hərə bir şey götürüb, müxtəlif tərəflərə qaçdılar. Əmiraslan bəy dərhal mərhumə Gövhər ağanı və qızıl qəlyanı götürüb qaçdı. Məzlum xanın ev əhli və uşaqlarından salamat qalanlarını onun adamları götürüb qırğından xilas etdilər. Əmiraslan bəy isə Gövhər ağanı möhkəm və təhlükəsiz bir yerdə gizlədi. Sonra isə gəlib bir az yemək əldə edib, Gövhər ağaya gətirdi. Gövhər ağa gözü yaşlı istər-istəməz bir neçə loxma yedi. Əmiraslan bəy Gövhər ağanı birtəhər sakitləşdirib, sonra öz evinə gətirdi.



Xüsusən, ermənilərlə müsəlmanlar arasında çox vaxt məhəbbət və dostluq olub, bir-biri ilə alış-veriş edirdilər. Xanlıqlar zamanında ermənilər və müsəlmanlar arasında belə mehribançılıq var idi. Hətta İbrahim xan erməni məliklərindən Məlik Şahnəzərin qızı Hurizad xanımı özünə kəbinli arvad etmişdi. Həmin Hurizad xanımın Böyük məscidin həyətində hal-hazırda vaqviyyatı var. Əfsuslar olsun ki, erməni tayfasının indi təbiəti dəyişib. Zahirləri batinləri ilə bir deyil. Zahirən özlərini dost kimi göstərsələr də, batinləri ədavətlidir. Özləri də görürlər ki, təbiətlərinin bu cür ədavətli olmasından həmişə zərər çəkirlər.

**BAĞIRQAN DAĞI**

Bu halda bir neçə gəlmə erməni tayfasının törətdiyi əhvalatlardan yazmaq lazımdır. Əvvəla, mərhum İbrahim xanın hökmranlığı zamanında Pənahabad, yəni Şuşa qalasının şərq tərəfində Bağırqan dağı deyilən yerdə bir uca qaya vardı. Həmin dağda öz təbəələri ilə Avan Koxa adlı bir erməni yaşayırdı. Avan Koxa öz təbəələrinə buyurmuşdu ki, harda əllərinə müsəlman düşsə, tutub onun hüzuruna gətirsinlər. Avan Koxanın əmrilə tutulmuş müsəlmanı çılpaqlayıb üzü üstə yerə yıxardılar. Sonra onun arxasının dərisindən dörd barmaq enində bıçaqla boynundan qom ətinəcən iki tərəfdən xətt çəkdirər və dərinin ucunu aşağı əydirilmiş ağacın qüvvətli bir budağına bənd edib budağı buraxırdılar. Ağacın budağı qüvvətlə yuxarı qalxanda o yazıq müsəlmanın dərisi boynuna qədər soyulardı və onun bağırtısı o dağa düşərdi. Bu əhvalatı görənin və eşidənin də bağrı qan olardı. Buna görə də həmin qayaya «Bağrıqan dağı» adı vermişdilər.

**QƏDİMDƏ ERMƏNİ— MÜSƏLMAN DAVASI**

1260-ci (miladi 1844) il tarixdə qundaqsaz İsaballı adlı bir erməni başqa ermənilərlə birlikdə müsəl-




ermənilərin vurub baş-gözlərini yardılar. Xülasə, şəhərin hakimi birtəhər müsəlmanları sakit edib erməniləri böyük fəlakətdən qurtardı.

* * *

Hicri 1294-cü (miladi 1877) ildə rus-osmanlı müharibəsində rus dövlətinin ordu başçılarından bir neçəsi erməni tayfasından idi. Həmin ermənilər Qars şəhərini tutarkən düşmənçiliklə nə qədər müsəlman kitabları və Qur'anı-Şərif əllərinə keçirdisə, yandırırdılar.

* * *

Həmin tarixdə ermənilərin böyük sənətkarları İrəvan şəhərində Üçkilsədə (Eçmiədzin) maşın tərtib edib, 9 milyon qəlp eskinas pul kəsdilər. Dövlət xəbərdar olub, qəflətən tökülüb həmin pulu və maşını müsadirə edib, pulkəsənləri və kəsdirənləri tutub cəzalandırdı.

* * *

Hicri 1321-ci (miladi 1903) il tarixində müsəlman kəndindən olan Məhəmməd və Salman adlı iki qardaş öz yüzbaşılarına etiraz əlaməti olaraq qaçıb meşənin içində kömür yandıran Aleksan adlı dağlı bir ermənininin yanına gəldilər. Həmin iki qardaş ermənilə hal-əhval etdikdən sonra əyləşdilər. Hava soyuq olduğuna görə bir az

içində kömür yandıran Aleksan adlı dağlı bir ermənininin yanına gəldilər. Həmin iki qardaş ermənilə hal-əhval etdikdən sonra əyləşdilər. Hava soyuq olduğuna görə bir az quyunun kənarında oturub qızındıqdan sonra xurcunlarında olan yeməyin hamısını çıxarıb, yarısını erməniyə verdilər, qalanını isə özləri yedilər.

Əhvalatdan xəbər tutan bu iki cavanın ata-anası hər gün yemək və çörək gətirib həmin kömürxanada onlara verirdilər. Bu əhvalat bir neçə gün belə davam etdi. Yenə bir gün onlara dadlı yeməklər gətirdilər. Cavanlar yeməyi yarıya bölüb, yarısını erməniyə verib, yarısını özləri yeyib, isti vura-vura yuxuya getdilər. O məlun erməni özündən savayı, qabaqcadan daha iki erməni gətirib orda gizlətmişdi. Elə ki cavanlar yatdı, ermənilərin hər üçü durub əllərində balta yavaş-yavaş gəlib, o biçarələrin başlarını iki parə etdilər. Cavanlar bircə dəfə çığırıb canlarını tapşırdılar. Sonra o məlun ermənilər o biçarələri üryan edib, paltarlarını və ciblərini soyub, bədənlərini kömür quyusuna atıb yandırdılar.

Yenə bu günlərdə Əfətli kəndinin müsəlmanlarından iki nəfər şəxsi Ballıca kəndinin ermənilərı hiylə ilə tutub öldürmüş və meyidlərini yandırmışlar.

* * *

Hicri 1321-ci il (miladi 1903) tarixdə rus-yapon müharibəsi zamanı bir qarabağlı erməni yapon dövlətinə dəyəri bir milyon yarım manat olan bir gəmi peşkəş elədi.

Bu zaman rus dövlətinin başı müharibəyə qarışdığına görə ermənilərdən çağırılmış əsgərlər dövlətə xəyanət edərək dəstə-dəstə silahları ilə bərabər, Osmanlı və İran dövlətlərinə qaçdılar. Qərəz, öz məzhəblərinin qaydası ilə andlarına yalan çıxıb müxtəlif xəyanətlər edirdilər.

**Ardı var**

# "Tatlısəs sui-qəsdində AKP-nin əli var"

Türkiyədə kürd partiyası ölkə hakimiyyətini cinayətdə ittiham edib

"İbrahim Tatlısəs sui-qəsdini BDP-nin üstünə yıxmağa çalışsalar da, bu işdə AKP-nin əlinin olduğu meydana çıxıb". Bunu PKK terror təşkilatının Türkiyədəki siyasi cinahı olan Barış və Demokratiya Partiyasının (BDP) həmsədri Səlahəddin Demirtaş deyib. Şanlıurfada səfərdə olan Demirtaş AKP-nin (hakim Ədalət və İnkişaf Partiyası) bu şəhərdə BDP-ni gözdən salmağa çalışdığını iddia edib.



Tatlısəsə sui-qəsd istintaqı çərçivəsində saxlanılan BDP-lilərin azadlığa buraxıldığını deyən Demirtaş dövlətin hadisədən xəbərdar olduğunu, ancaq müdaxilə etmədiyini deyib. "Urfanın dəyərli övladı İbrahim Tatlısəs hadisəsi yadınızdadır. BDP-nin üstünə yıxmağa çalışdılar. Amma hadisədən sonra saxlanılan partiya üzlərimiz bu gün hamısı azadlıqdadır. Bu sui-qəsdi törədən cinayətkar qrup iki ay əvvəldən təqib edilib və telefon danışıqlarına da qulaq asılıb. Onları addım-addım təqib etsələr də sui-qəsd vaxtı müdaxilə edilməyib, hadisədən sonra yaxalayıblar".

BDP-ni bu hadisə ilə əlaqələndirərək partiyanı urfalıların gözündən salmağa çalışdıqlarını deyən sədr sui-qəsdin bilavasitə AKP-nin əliylə törədildiyini vurğulayıb. "Bu hadisə ilə əlaqədar partiyamızın məclis üzvü saxlanıldı və Urfa xalqını çaşdırmağa çalışdılar. Bu, seçkilərdən əvvəl baş verib. İstintaq vaxtı partiyamızın bu hadisə ilə əlaqəsinin olmadığı, hadisənin mütəşəkkil cinayətkar dəstə tərəfindən törədildiyi, bundan isə əvvəldən xəbərlərinin olduğu meydana çıxıb. Belə çıxır ki, sui-qəsddə AKP-nin əli var".

Son günlər Türkiyədə müzakirə olunan prezident üsul idarəsini dəstəklədiklərini deyən Demirtaş demokratik muxtariyyətin də müzakirəyə çıxarılmasını tələb edib.

*qaynar.info*

# Kürdüstan rəhbərliyi Malikini hədələdi

İraqın kürd administrasiyası Baş nazirin nifrət dolu açıqlamaları qarşısında susmayacağını bəyan edib.

"Azerimuslims.com" xarici KİV-ə istinadən xəbər verir ki, Şimali İraq Kürd Administrasiyasından (ŞİKA) İraqın Baş naziri Nuri əl-Maliki haqqında bəzi məxfi sənədləri ictimaiyyətə açıqlanacağı bildirilib.

Administrasiyanın Baş nazirliyinin mətbuat xidmətinin rəsmi internet səhifəsində yerləşdirilən açıqlamada regional rəhbərliyin Baş nazir Malikinin ŞİKA-ya dair nifrət dolu açıqlamaları qarşısında artıq susmayacağı vurğulanıb.

Açıqlamada Malikinin sonuncu müsahibələrinin birində kürdlərə qarşı iftiralar səsləndirdiyi, ölkədə səbəb olduğu xoşagəlməz situasiyanı başqalarının ayağına yazmağa çalışdığı, eləcə də konstitusiyanın müddəalarına əməl etmədiyi qeyd olunub.

Xatırladaq ki, İraqın Baş naziri "En-Er-Te" telekanalına müsahibəsində ölkəsindəki bir çox problemin regional kürd administrasiyası ilə olan anlaşmazlıqlardan qaynaqlandığını iddia etmişdi.

# Güney türklüyünün məğlubiyyəti Quzey Azərbaycanın və Türkiyənin sonunun başlanğıcıdır"

## *Pərviz Elay: "Hansı dünya gücü Azərbaycan türklərinin milli mənafelərini nəzərə alacaqsa, biz onun cinahındayıq"*

*Tanınmış yazar-araşdırmaçı Pərviz Elayın "Təzadlar"a müsahibəsi.*



**- Pərviz bəy, son günlər İrana qarşı müharibə ehtimalı artıb. Sizcə, İran rejimi çökdükdən sonra ölkədə hansı hadisələr baş verə bilər?**

- Hazırda dəqiq proqnoz vermək çətindir. Əlbəttə, anlaşılandır ki, Qərb dünyası İranın çökdürülməsi və İraqda olduğu kimi bir durumu yaratmağı istəyir. Amma ortada Rusiya amili var. Əlavə də, BMT Təhlükəsizlik Şurasında Qərb dünyası çinin müqavimətilə də üzləşib. Qərb bloku tərəfdən hərbi əməliyyatlar münaqişəyə Rusiyanı da cəlb edə bilər. Ona görə də proseslərin hərbi münaqişə üzrə inkişafının nəticələrini proqnozlaşdırmaq çətindir.

İran çoxmillətli dövlətdir. Sosial və siyasi proseslərdən öncə bu dövlətdə yatmış milli problemlər var. ölkənin siyasi xaosa qərq olması bu dövlətdə milli məsələləri kəskin nöqtəyə yüksəltmək üçün zəmin ola bilər.

Qərb uzun müddətdir müsəlman dünyasında özünə sərf edə biləcək modelin yeridilməsini təyin etməyə çalışıb. İndi demək olar bu model "Livan demokratiyasıdır". Yəni hər hansı bir müsəlman dövləti daxilindəki siyasi, dini-təriqət və milli qüvvələrin münaqişəsi zəminində həmin dövlət zəifləndir və nominal olaraq mövcud olur. İraq və Əfqanıstanda bu model artıq işləyir. Liviya, Misir və Türkiyə isə "livanlaşma" ərəfəsindədirlər. çox güman ki, bu model gələcək İrana da tədbiq ediləcək. Bu proses isə, sözsüz ki, milli və dini-təriqət zəmində güclü hərbi-siyasi qüvvələrin ortaya çıxması qanlı toqquşmalar deməkdir.

**- Güney Azərbaycan Milli Hərəkatı İranda baş verən dəyişikliklərə hazırdırmı?**

- ümumiyyətlə, milli hərəkat müəyyən liderin və onun ətrafında siyasi qüvvələrin birləşməsini, ya da ciddi milli təşkilatı, strukturu ehtiva edir. üstəlik, bu strukturun nəhəng maliyyə özülü olmalıdır. Təəssüflər ki, bu gün Güney Milli Hərəkatı vahid komandirsiz və vahid qərargahsız, maliyyə özülü çox zəif pərakəndə partizan hərəkatını xatırladır.

Qeyd edək ki, Osmanlı imperiyasının son 100 ilində erməni terrorizmi, XX əsrin 60-70-ci illərində kürd separatçı qüvvələri də pərakəndə durumda olmuşlar. Amma Qərbin və Rusiyanın siyasi dairələri öz məqsədlərindən irəli gələrək birbaşa müdaxilə ilə bu terrorçu-separatçı hərəkatların möhkəmlənməsinə nail oldular.

Beləliklə, belə bir qənaət ortaya çıxır ki, Qərbin siyasi çevrələri Güney Azərbaycan Milli Hərəkatının möhkəmlənməsini, güclü bir milli qüvvəyə çevrilməsini istəmirlər. Buna görə də Güney Milli Hərəkatının möhkəmlənməsinin ağırlığı bizim üzərimizə düşür. Bu hərəkatı möhkəmlətmək, onu kənar və təxribatçı müdaxilələrdən qorumaq, səhv yoldan çəkindirmək işini millətimiz özü etməlidir. Burada Quzey Azərbaycanın mənəvi iştirakı qaçılmaz və mütləqdir. Quzey Azərbaycan və Türkiyə türklüyü anlamalıdır ki, İranla bağlı proseslərdə Güney türklüyünün məğlubiyyəti Quzey Azərbaycanın və Türkiyənin sonunun başlanğıcıdır.

**- Ümumiyyətlə, İranda Azərbaycan türklərinin iştirakı olmadan hansısa dəyişikliklərin baş verməsi mümkündürmü?**

